QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 223 (6187) **12 dekabr** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Əbədiyaşar Lider!

*12 dekabr Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günüdür*



**Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər**



Bax 3

**On yeddi siyasi partiyanın rəhbərləri ilə videokonfrans formatında görüş keçirilib**



Bax 10

**Əli Əhmədov: "Əvvəlki illərdən fərqli olaraq bu il anım günü tarixi dövrə təsadüf edir"**




Bax 4

# Vətəndaşlar yazırlar: "Biz xoşbəxtik ki, Sizin kimi vətənpərvər, xalqını sevən Prezidentimiz var"

*Rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də bir sıra digər ölkələrin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.*



**"Siz, Azərbaycan xalqının Milli Qəhrəmanı, tarix yazan qalib Sərkərdəsi, ən çox dəstəyə layiq olan Prezidenti və Müzəffər Ali Baş Komandanısınız"**

Şirvan şəhərinin sakini Vüsal İbrahimov yazır: "Möhtərəm cənab Prezident, bizim Vətən müharibəsində Qələbəmizi şərtləndirən ən vacib məqam Ulu Öndərimizin xalqımızın çağırışı ilə Azərbaycanı bəlalardan xilas edərək modern və güclü iqtisadiyyatın təməlini qoyması, Sizin bu siyasi xətti uğurla davam etdirməyinizlə güclü ordu quruculuğu formalaşdırılması oldu. Azərbaycan xalqının bəxti gözəl oldu, ona görə ki, bu xalqa, dövlətə və Vətənə xalqını sevən, onun uğrunda hər an gözünü qırpmadan bütün əziyyətlərə qatlanan və xalqın, dövlətin maraqlarını hər şeydən üstün tutan Ulu Öndərimiz və onun layiqli davamçısı - Siz, bizim liderimiz oldunuz. Vətən müharibəsində siyasi və hərbi Qələbəmizin uğurları Sizin siyasi iradənizə əsaslanır və eyni zamanda, rəhbəri olduğunuz müzəffər Ordumuzun gücü ilə zəfər çaldıq. Mən Sizin və Ordumuzun yanındayam. Möhtərəm cənab Prezident, xalqımıza silsilə qələbə sevinci yaşatdığınız, bütün beynəlxalq təzyiqlərə mərdcəsinə lazımi cavab verdiyinizə və Azərbaycanın ərazi bütövlüyünü tam təmin etdiyinizə görə Sizə sonsuz minnətdarlığımı ifadə etməklə qürur duyuram. Siz Azərbaycan xalqının Milli Qəhrəmanı, tarix yazan qalib Sərkərdəsi, ən çox dəstəyə layiq olan Prezidenti və Müzəffər Ali Baş Komandanısınız. Allah Sizi hər zaman zirvələrdə qərarlaşdırsın. Azərbaycanın bütün sahələrdə inkişafı uğrunda müqəddəs fəaliyyətinizdə yorulmaz uğurlar diləyirəm. Sizin kimi Prezidentimiz olduğuna, Sizin seçiciniz olduğuma görə çox məmnun və xoşbəxtəm".

**"Siz Azərbaycanın Milli Qəhrəmanı adına layiqsiniz"**

Neftçala rayonundan Eldar Əhmədovun məktubunda deyilir: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, mən bir Azərbaycan vətəndaşı kimi Qələbə qazandığımız üçün çox sevinirəm və Sizi ailəmiz adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Sizin müdrik rəhbərliyiniz sayəsində ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdi. Dövlətimiz və xalqımız üçün etdiklərinizə görə Sizə çox minnətdarıq. Siz Azərbaycanın Milli Qəhrəmanı adına layiqsiniz. Əziz Prezidentimiz, əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Allah Sizi qorusun!".

**"Siz Azərbaycan xalqının Milli Qəhrəmanı oldunuz"**

Ağsu rayonundan Elçin Zeynalov: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi Laçın rayonunun bütün sakinləri, o cümlədən ailəmizin üzvləri adından şanlı Ordumuzun qazandığı qələbələr, doğma torpaqların yağı düşməndən azad edilməsi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Siz eyni vaxtda iki düşmənlə - gözəgörünməz koronavirus pandemiyası və gözəgörünən ermənilərlə mübarizə apardınız. Əminəm ki, erməni işğalçıları üzərində qazandığınız parlaq Qələbəni pandemiya ilə mübarizədə də qazanacaqsınız. Siz öz şücaətinizlə, qətiyyətinizlə, iradənizlə, uzaqgörənliyinizlə və qeyrətinizlə bizim 28 illik həsrətimizə son qoydunuz və Azərbaycan xalqının Milli Qəhrəmanı oldunuz. Döyüş meydanında qazandığınız bu fəxri ad hər bir azərbaycanlının ürəyindən xəbər verir. Siz Azərbaycan xalqının qüdrətini təkcə Ermənistana deyil, bütün dünyaya göstərdiniz. Sizin sayənizdə biz təkcə döyüş meydanında deyil, informasiya müharibəsində də qalib gəldik. Müharibə getdiyi bir vaxtda dünyanın aparıcı kanallarına mətin, əsaslı cavablarınızla haqq səsimizi çatdırdınız. Azərbaycan xalqı bütün varlığı ilə Sizə inanır. Siz bu xalqın xilaskarısınız. Allah Sizi qorusun! Sizin əsl qalib Sərkərdə olmağınızı tək biz yox, bütün dünya gördü. Siz öz adınızı tarix səhifələrinə qızıl hərflərlə yazdınız. Siz mənim 80 yaşlı atamın, 70 yaşlı anamın həsrətinə son qoydunuz. İnanıram ki, rayonumuzun bütün sakinləri mənim kimi doğma Laçınımızda Sizin qızıldan büstünüzü görmək istəyirlər. Ömrümüz boyu Sizə minnətdarıq. Sizin şərəfinizə nə qədər xoş sözlər deyilsə də, nə qədər kitablar yazılsa da, yenə azdır. Bir daha Sizi səmimi qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq. Dünya durduqca durasınız! Allah yar və yardımçınız olsun! Amin!".

**"Mən arzu edirəm ki, Siz Azərbaycan xalqının Milli Qəhrəmanı adına layiq görüləsiniz"**

Gəncə şəhər sakini Mürsəl Əliyev: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, torpaqlarımızın erməni işğalçılarından təmizlənməsi uğrunda gedən Vətən müharibəsində qazandığımız Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm, Sizi bağrıma basıram. Bütün xalqımız kimi Sizinlə fəxr edirəm, Ordumuzla qürur duyuram. Döyüşdə qazandığımız Qələbəyə görə dövlətimizə, Ordumuza, ən başlıcası isə Sizə - Ali Baş Komandanımıza minnətdarıq. Allah Azərbaycan xalqını, Azərbaycan əsgərini qorusun, hörmətli Prezidentimizin kölgəsini Azərbaycan xalqının başı üzərindən əskik etməsin. Cənab Prezident, bu yolda Sizinləyik, Sizi ürəkdən dəstəkləyir, Sizinlə fəxr edir, Sizi sevirik. Allah Sizi qorusun, eşq olsun Sizə. Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Siz bizim əbədi Prezidentimizsiniz. Mən arzu edirəm ki, Siz Azərbaycan xalqının Milli Qəhrəmanı adına layiq görüləsiniz, çünki Siz həqiqətən də bizim Milli Qəhrəmanımızsınız. Bir çox ölkələrin təsir və təzyiqlərinə baxmayaraq, həm hərb cəbhəsində, həm də informasiya cəbhəsində böyük nailiyyətlər qazandığınız bütün dünyaya məlumdur. Bütün xalqımız kimi mən də Sizin zəkanıza, Sizin hazırcavablığınıza heyranam. Bizi sevməyən jurnalistlərin dilini qurudanda Sizi bağrıma basmaq istəyirdim. Sizinlə fəxr edir, qürur duyuram. Bu gün bütün xalqımız da mənim kimi Sizinlə fəxr edir. Bütün xalqımızın arzusudur ki, Sizi Azərbaycanın Milli Qəhrəmanı kimi görsünlər. Biz bunu ürəkdən arzu edirik. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda gedən Vətən müharibəsində şəhid olmuş balalarımıza Allahdan rəhmət diləyir, onların ruhu qarşısında baş əyirik. Allah şəhidlərimizin valideynlərinə, bütün xalqımıza səbir versin. Müzəffər Ali Baş Komandan, mən Gəncə əhalisi adından, ailəmiz adından, yuxarıda göstərilənləri Sizə bildirməklə bu gün apardığınız dönməz siyasəti dəstəkləyir, hər zaman Sizin yanınızda olduğumuzu bildirir və Vətən yolunda, dövlətimiz uğrunda, torpaqlarımızın bütövlüyü uğrunda canımdan keçməyə hazır olduğumu, hər an döyüşə getməyə canla-başla hazır olduğumu bildirmək istəyirəm".

**"Biz xoşbəxtik ki, Sizin kimi vətənpərvər, xalqını, millətini sevən Prezidentimiz var"**

Şəkidən Məlahət Aslanova dövlətimizin başçısına yazır: "Müzəffər Ali Baş Komandan, Sizi və komandanlıq etdiyiniz rəşadətli Ordumuzu Qələbə bayramı münasibətilə ailəm və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm. Sizə, ailənizə cansağlığı, uzun ömür arzulayıram. Allah Sizi, Ordumuzun əsgər və zabitlərini qorusun. Yaralı əsgərlərimizə Allahdan şəfa, şəhidlərimizə isə rəhmət diləyir, onların ruhları qarşısında baş əyirəm. Azərbaycan xalqının xilaskarı, qəhrəman oğlu, nəzərinizə çatdırmaq istəyirəm ki, mənim 10-cu sinifdə oxuyan nəvəm də könüllü olaraq müharibəyə getmiş və döyüşlərdə qəlpə yarası almışdır. Mən nəvəmlə fəxr edirəm və indi səbirsizliklə onun yolunu gözləyirəm. Əziz Ali Baş Komandanım, biz xoşbəxtik ki, Sizin kimi vətənpərvər, xalqını, millətini sevən Prezidentimiz var. Allah Sizi qorusun, mən Sizinlə fəxr edirəm".

**"Siz bütün bu uğurlarınızla dünyada güclü, qüvvətli, yenilməz və mətin Azərbaycan obrazı yaratdınız"**

Bakı Ali Neft Məktəbinin tələbələrinin məktubunda deyilir: "Möhtərəm cənab Prezident! Müzəffər Ali Baş Komandan, müqəddəs torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsinin möhtəşəm qələbə ilə başa çatması hər bir azərbaycanlı kimi bizim də qəlbimizdə böyük qürur və iftixar hissi yaratmışdır. 30 il davam edən işğala son qoyulması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi şərəfli tariximizin ən mühüm hadisəsidir. 44 gün davam edən müharibədə beynəlxalq səviyyədə bəyan etdiyiniz "Qarabağ Azərbaycandır!" sözləriniz xalqımızın haqq, ədalət uğrunda savaşının simvolu olaraq milli birliyimizi, bütövlüyümüzü və həmrəyliyimizi daha da gücləndirdi. Ali Baş Komandan kimi Sizin yüksək idarəçiliyiniz və böyük sərkərdəlik məharətinizlə idarə olunan Silahlı Qüvvələrimiz doğma torpaqlar uğrunda böyük fədakarlıq, əzm və qəhrəmanlıq nümayiş etdirdilər. Siz bütün bu uğurlarınızla dünyada güclü, qüvvətli, yenilməz və mətin Azərbaycan obrazı yaratdınız. Möhtərəm cənab Prezident, biz Vətən müharibəsinin davam etdiyi günlərdə Sizin imzaladığınız Sərəncamla Prezident təqaüdünə layiq görülmüş tələbə-gənclər olaraq Sizin intellektual əsgərlərinizik. Bu gün biz həm də qalib ölkənin vətəndaşı kimi işğal altında olan bütün torpaqlarımızın azadlığının şahidləriyik. Ancaq Sizin əmrinizlə bu şərəfli adı Müzəffər Ali Baş Komandanın sıravi əsgəri və şəhid adına dəyişdirməyə, Sizin intellektual əsgərləriniz olaraq bütün digər tapşırıqlarınızı da yerinə yetirməyə hazırıq. Bütün sahələrdə qələbə Azərbaycanladır! Qarabağ Azərbaycandır!".

**"Siz peşəkar, parlaq bir siyasətçi kimi müasir tarixdə ustadlıq nümunəsi oldunuz"**

Rusiyanın Moskva şəhərində Tofiq Dadaşov yazır: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi, Azərbaycan xalqını və rəşadətli Ordumuzu böyük Qələbə münasibətilə ürəkdən təbrik edirəm. Yaxınlarımla birlikdə 44 gün ərzində Qarabağın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan əməliyyatları həyəcan və qürurla izlədik. Xalqa müraciətləriniz və verdiyiniz çoxsaylı müsahibələr çoxmillətli Azərbaycan xalqını ətrafınızda daha da birləşdirdi, Qələbəyə inamı artırdı. Siz peşəkar, parlaq bir siyasətçi kimi müasir tarixdə ustadlıq nümunəsi oldunuz. Qalib Azərbaycan Ordusu isə müharibə şəraitində bütün dünyaya nəciblik və insanlıq dərsi keçdi. Hörmətli cənab Prezident, Sizə və ailə üzvlərinizə möhkəm cansağlığı, Azərbaycanın rifahı naminə uğurlar arzulayıram".

**"Biz Sizinlə fəxr edirik, cənab Prezident!"**

Gəncə şəhərindən Əhməd Məlikov yazır: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, xalqımıza, bütün dünya azərbaycanlılarına bəxş etdiyiniz möhtəşəm tarixi Qələbəyə görə Sizə minnətdarlığımızı bildiririk. Xoşbəxtik ki, bütün həyatını xalqının rifahı üçün sərf etməkdən yorulmayan, xalqı yumruq kimi birləşdirən, Azərbaycanın şanlı Qələbəsini tarixin səhifəsinə qızıl hərflərlə yazan cəsur, polad iradəli, siyasət meydanında yüksək idrak nümayiş etdirən Sizin kimi təcrübəli bir liderimiz var. Biz Sizinlə fəxr edirik. Tanrı Sizi qorusun!".

Ardı Səh. 3

# Vətəndaşlar yazırlar: "Biz xoşbəxtik ki, Sizin kimi vətənpərvər, xalqını sevən Prezidentimiz var"

Əvvəli-Səh-2

**"Azərbaycan Sizin illərdən bəri yorulmadan ölkəmizi inkişaf etdirməyinizin, işıqlı gələcək qurmağınızın sayəsində belə güclü olduq"**

Saatlı rayonundan Yeganə Mehdiyeva və Şahzadə Osmanova yazırlar: "Hörmətli cənab Prezident, Azərbaycan Ordusu Vətən müharibəsində böyük zəfərini qazandı və bununla gücünü dosta da, düşmənə də göstərdi. Azərbaycan Sizin illərdən bəri yorulmadan ölkəmizi inkişaf etdirməyinizin, işıqlı gələcək qurmağınızın sayəsində belə güclü oldu. Möhtərəm Prezident, bizə yaşatdığınız Qələbə sevincinə görə Siz başda olmaqla bütün Azərbaycan xalqını təbrik edirik. Bu möhtəşəm hissləri yaşadığımıza görə Sizə minnətdarıq. Siz bizim əbədi Prezidentimizsiniz".

**"Düşmən üzərində qazanılmış tarixi Qələbə şəxsən Sizin müdrik siyasətinizin bəhrəsidir"**

Quba rayonunun sakini Hilal Əhmədov yazır: "Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan, zəmanəmizin ən böyük və görkəmli şəxsiyyəti, müasir Azərbaycan Respublikasının qurucusu, ulu öndərimiz Heydər Əliyevin Milli Ordu quruculuğunda əldə etdiyi yüksək nailiyyət Sizin tərəfinizdən uğurla davam etdirilir. Azərbaycan Ordusu bu gün çox güclü, qüdrətli, müzəffər və yenilməz Orduya çevrilmişdir. Möhtərəm Prezident, cənab Ali Baş Komandan, müqəddəs torpaqlarımızı mənfur düşmən tapdağından azad edərək, amansız düşmən üzərində qazanılmış tarixi Qələbə şəxsən Sizin müdrik siyasətinizin bəhrəsidir. Allah Sizi xalqımızın xilaskarı olaraq yaratmışdır. Allah Sizi və xalqımızı qorusun! Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Yaşasın müzəffər Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

**"Biz təbrizlilər Sizinlə fəxr edirik"**

İranın Təbriz şəhərindən Kərim Xoşzarə: "Möhtərəm Prezident, Siz şərəfli bir insanın layiqli və şücaətli oğlusunuz. Biz təbrizlilər Sizinlə fəxr edirik. Mən şəxsən sevinirəm ki, Sizinlə eyni dövrdə yaşayıram. Siz qeyrətli müsəlman kimi Qarabağı Azərbaycana və İslama qaytardınız, məscidlərimizi murdarlardan xilas etdiniz. Allah Sizi və möhtərəm ailənizi qorusun, hər zaman başıuca eləsin. Amin!".

**"Biz artıq qələbə çalmış böyük bir millətin nümayəndəsi kimi başımızı dik tutub qürurla gəzə bilərik"**

Ukraynanın Xarkov şəhərindən Murad Ömərov: "Möhtərəm Prezident, Sizi və Sizin şəxsinizdə bütün xalqımızı torpaqlarımızın işğaldan azad olunması münasibətilə təbrik edir, ən xoş arzularımızı çatdırıram. Biz çox fərəhlənirik ki, torpaqlarımızın 30 illik işğalı Şuşa qalasında şücaətli, cəsur əsgərlərimizin tarixə düşəcək qələbəsi ilə başa çatdı. Mən 40 ildən çox ölkəmizdən kənarda yaşayan bir azərbaycanlı kimi Sizə və Sizin müdrik rəhbərliyiniz altında fəaliyyət göstərən hərbçilərimizə, diplomatlarımıza və siyasətçilərimizə öz minnətdarlığımı bildirirəm. Biz artıq qələbə çalmış böyük bir millətin nümayəndəsi kimi başımızı dik tutub qürurla gəzə bilərik və bunun üçün torpaqlarımızın azad olunması uğrunda döyüşlərdə şəhidlik zirvəsinə qalxmış hərbçilərimizin xatirəsi qarşısında baş əyirik, ulu Tanrıdan onlara rəhmət və yaralılarımıza şəfa diləyirik. Ağdam, Kəlbəcər və Laçın rayonlarının Sizin müdrik siyasətiniz nəticəsində itki verilmədən azad olunması bizə bir daha əsas verir ki, gələcəkdə də diplomatiya cəbhəsində uğur qazanacaq və vəhşi ermənilər tərəfindən tamamilə viran edilmiş şəhər və kəndlərimizin bərpa ediləcəyinə əmin olaq! Fürsətdən istifadə edərək Sizə şəxsən öz dərin minnətdarlığımı yetirirəm!".

**"Biz türk milləti olaraq azərbaycanlı qardaşlarımızla böyük qürur və xoşbəxtlik duyduq"**

Türkiyə Muğla şəhərindən Hakan Çetinkaya: "Hörmətli cənab İlham Əliyev, Allahın izni və Sizin böyük fədakarlığınızla Qarabağ uğrunda zəfər yürüşünüz mübarək oldu. Sizin əməyinizi təqdir edir, Azərbaycan torpaqlarının işğaldan azad olunması münasibətilə Sizə təbriklərimi çatdırıram. Biz türk milləti olaraq azərbaycanlı qardaşlarımızla böyük qürur və xoşbəxtlik duyduq. Allah uğurlarınızı daimi eləsin!"

**"Siz 44 gün ərzində olan bütün çıxışlarınızda, müraciətlərinizdə, müsahibələrinizdə hər bir vətəndaşın içərisindən gələn fikri ifadə etdiniz"**

Masallıdan Tofiq Şahmarov: "Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz, titanik fəaliyyətiniz, səbirliliyiniz, təmkinliliyiniz, zərgər dəqiqliyi ilə hesablanmış addımlarınız və Azərbaycan Ordusunun polad iradəsi, cəngavərliyi, igidliyi ilə dünya azərbaycanlılarının, türk dünyasının və Azərbaycan dövlətini sevən insanların arzularının çin olmasına nail olunmuşdur. 44 gün ərzində mənfur düşmənin dəmir beton istehkamları yerlə-yeksan edildi. Azərbaycan əsgəri hər bir vətəndaşın gözü hesab edilir və ediləcək də. Ali Baş Komandanımız cənab İlham Əliyev, artıq dünya fatehləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdən birinə çevrilmisiniz. Sizin əməyinizi xarakterizə etməyə söz və cümlə tapa bilmirəm. Siz 44 gün ərzində olan bütün çıxışlarınızda, müraciətlərinizdə, müsahibələrinizdə hər bir vətəndaşın içərisindən gələn fikri ifadə etdiniz. Bu çıxışlar və müraciətlər ilə Siz dünyada ən hündür dağdan da uca oldunuz. Azərbaycan Ordusunun şücaəti, xüsusilə Şuşa şəhərimizi azad etməsi ilə əlaqədar əməliyyatı hərbi akademiyalarda dərslik kimi tədris ediləcəkdir. Rus sərkərdəsi Suvorovun Alp dağlarını fəth etməsi ilə müqayisə edildikdə Şuşa əməliyyatı daha üstün görünür. Möhtərəm Ali Baş Komandan, Siz doğrudan da xoşbəxt şəxsiyyətsiniz. Belə ki, Siz ata vəsiyyətini yerinə yetirdiniz, Siz xalqın istəyini təmin etdiniz, Mən bütün millətin fikrini ifadə edərək deyirəm: Siz millətin, xalqın qəhrəmanısınız. Belə bir adın təsis edilib Sizə verilməsini istəyirəm. Ali Baş Komandan, Sizin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlığı azərbaycanlıların qürurla yaşamasını təmin etdi. Qardaş ölkənin və onun rəhbərinin Azərbaycana siyasi və mənəvi dəstəyi misilsizdir. Ulu Öndərimizin sözləri ilə desək, Azərbaycan dünyaya günəş kimi doğmaqdadır. Möhtərəm Prezident, mən uzun müddət daxili işlər orqanlarında fəaliyyət göstərməklə, Qarabağ müharibəsinin iştirakçısı və veteranı olmaqla tərəfinizdən "İgidliyə görə" medalı ilə təltif edilmişəm. Bu gün də istənilən tapşırığınızı yerinə yetirməyə hazıram. Ulu Tanrı Sizə yar və yardımçı olsun!"

**"Bu qələbəni Sizin qətiyyətiniz, sarsılmaz uzaqgörən siyasətiniz nəticəsində əldə etdik"**

Tərtərdən Suludin Yusifov: "Möhtərəm cənab Prezident, əziz Ali Baş Komandan, Qarabağ uğrunda gedən müharibədə möhtəşəm qələbə qazanmağımız münasibətilə Tərtər rayonunun şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranlar adından Sizi səmimi qəlbdən təbrik edirəm. Bu qələbə hər birimizi qürurlandırır. Fəxr edirik ki, Sizin kimi Ali Baş Komandanımız, Prezidentimiz var. Bu qələbəni Sizin qətiyyətiniz, sarsılmaz uzaqgörən siyasətiniz nəticəsində əldə etdik, mənfur erməniləri "iti qovan kimi" qovduq. Bizə bu böyük qələbə sevincini yaşatdığınız üçün Sizə dərindən minnətdarıq. Bir daha Sizi, Azərbaycanın Milli Ordusunu və bütün Azərbaycan xalqını qələbə münasibətilə təbrik edirik. Tanrı Sizi qorusun. Tərtərlilər həmişəki kimi, yenə də Sizinlədir. Cocuq Mərcanlıdan başlayan böyük qayıdışımıza nail olduq. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!"

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər








Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə əlaqədar Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət ediblər. Partiyanın nümayəndələri dahi şəxsiyyətin əziz xatirəsini böyük ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan Ümummilli Lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.

Dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının yaradıcısıdır.

Əbədiyaşar liderimizin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 760 mindən çox üzvü birləşdirərək respublikamızın aparıcı siyasi qüvvəsi kimi ölkəmizdə YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Hərbi vəziyyətin ləğv edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# On yeddi siyasi partiyanın rəhbərləri ilə videokonfrans formatında görüş keçirilib



***Dekabrın 10-da Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə fəaliyyət göstərən 17 siyasi partiya rəhbərləri ilə videokonfrans formatında görüş keçirib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev, Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Ağ Partiyanın sədri Tural Abbaslı, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz, Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Əliyev, Müstəqil Xalq Partiyasının nəzarət-təftiş komissiyasının sədri Əmir Çıraqəliyev, Azərbaycan Milli Hərəkat Partiyasının sədr müavini Fuad Cəfərov və Gələcək Azərbaycan Partiyasının sədri Ağasif İbrahimov iştirak ediblər.

Görüşdə çıxış edən Ədalət Vəliyev Vətən müharibəsində qazanılmış şanlı Qələbə münasibətilə bütün siyasi partiyaları təbrik edib. O, Azərbaycan Silahlı Qüvvələrinin Zəfər paradının xüsusi dəyərə malik olduğunu vurğulayaraq müzəffər Ordunun gücünü, dövlətimizin qüdrətini bir daha nümayiş etdirdiyini bildirib.

Ə.Vəliyev 30 ilə yaxın davam edən işğala son qoyulması yolunda aparılan mübarizəyə bütün siyasi qüvvələrin Ali Baş Komandanın ətrafında birləşməklə töhfə verməyə çalışmasını, siyasi partiyaların 15 iyul Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən hərbi təxribatla əlaqədar birgə bəyanatını, Vətən müharibəsi ilə əlaqədar milli həmrəyliyi təcəssüm etdirən 27 sentyabr tarixli bəyanatını, 12 və 17 oktyabr tarixli müraciətlərini, eləcə də Fransanın Azərbaycana münasibətdə qərəzli mövqeyinə qarşı 7 oktyabr və 25 noyabr tarixlərində bütün siyasi qüvvələrin birgə etirazını dövlətimizin təməl prinsiplərinin qorunması istiqamətində atılan təqdirəlayiq addımlar olduğunu diqqətə çatdırıb. Dövlətçilik uğrunda həmrəyliyin, milli maraqlar naminə birləşməyin bariz nümunəsini təşkil edən bu yanaşmanın dövlətimizin başçısının siyasətinin nəticəsi olduğunu vurğulayan Şöbə müdiri diqqətə çatdırıb ki, ölkədə Azərbaycan Prezidentinin təşəbbüsü və güclü siyasi iradəsi sayəsində siyasi qüvvələr arasında milli vəhdət və sağlam əməkdaşlıq mühiti hələ hərbi əməliyyatlar başlamazdan əvvəl formalaşıb, Azərbaycan cəmiyyətinə, ictimai-siyasi mühitinə sivil yanaşma və harmoniya gətirilib. Bu gün iqtidar-müxalifət münasibətlərinin təməlində dövlətçilik maraqlarının bütün digər maraqlardan üstün tutulması, Azərbaycan xalqının mənafeyinin önə çəkilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü və təcavüzə son qoyulması uğrunda mübarizəsi, eləcə də ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsinə dair məsələlərdə həmrəylik nümayiş etdirilməsi və milli-mənəvi dəyərlərə hörmət edilməsi prinsipləri durur.

Prezident Administrasiyasının rəsmisi dövlətçiliyimizin inkişafı və qüdrətlənməsi naminə siyasi partiyaların milli birliyinin bundan sonra daha da möhkəmlənməsinin və Azərbaycanın düşmənlərinə qarşı daha əzmli olmasının vacibliyini bildirərək Prezident İlham Əliyevin 2020-ci il 24 sentyabr tarixli çıxışından sitat gətirib: "Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafına xidmət edəcək".

Daha sonra Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Əliyev, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev və Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov çıxış ediblər.

Natiqlər öz çıxışlarında Vətən müharibəsində qazanılmış böyük Qələbə münasibətilə Müzəffər Ali Baş Komandan İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu təbrik edərək Zəfər gününün təsis olunması və Qələbə paradının keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Həmçinin siyasi partiyaların milli məsələlərdə həmrəyliyinin bundan sonra daha da gücləndirilməsinin və dövlətin təməl prinsiplərinin qorunmasında birlik nümayiş etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Azadlıq Partiyasının sədri Əhməd Oruc xaricdə "Azərbaycanın dostları" adlı cəmiyyətin yaradılması, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə isə sərt karantin dövründə siyasi partiyaların fəaliyyətinin təşkili ilə bağlı müvafiq təkliflər səsləndiriblər. Görüş iştirakçıları işğaldan azad edilmiş ərazilərdə gələcək fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıb, müvafiq ictimai nəzarət mexanizmlərinin yaradılması, yerli və xarici tərəfdaşlarla məqsədyönlü işin qurulmasına dair təkliflər səsləndiriblər. Həmçinin normal fəaliyyət üçün siyasi partiyaların qərargahla təmin edilməsi məsələsi də müzakirə olunub.




# Əli Əhmədov: "Əvvəlki illərdən fərqli olaraq bu il anım günü tarixi dövrə təsadüf edir"

## *YAP İcra Katibliyində videokonfrans keçirilib*

Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Heydər Əliyev-müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda videokonfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, dekabrın 12-də Ümummilli Liderimiz Heydər Əliyevin anım günüdür. Onun sözlərinə görə, artıq 17-ci ildir ki, xalqımız Ulu Öndərimizin anım gününü qeyd edir, xatirəsini dərin ehtiramla yad edir: "Əvvəlki illərdən fərqli olaraq bu il anım günü tarixi dövrə təsadüf edir. Dekabrın 10-da möhtəşəm qələbəyə həsr olunmuş zəfər paradı keçirildi. Torpaqlarımızın, Qarabağın işğaldan azad olunması Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. O, Azərbaycan Prezidenti vəzifəsində çalışarkən problemin həlli üçün böyük çabalar göstərmişdi. Heydər Əliyev Azərbaycanın qələbəyə doğru atılan addımlarının əsaslarının qoyulması istiqamətində əhəmiyyətli xidmətlər göstərdi. 1996-cı ildə ATƏT-in Lissabon Sammitində bu istiqamətdə ilk diplomatik uğur qazanıldı. Heydər Əliyev bütün dünyaya Qarabağ həqiqətələrini çatdırırdı. Diplomatik fəaliyyətlə yanaşı güclü ordu quruculuğuna xüsusi diqqət yetirildi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Heydər Əliyevin arzu etdiyi qələbə sevincini xalqa bəxş etmiş oldu. Bu zəfərin əldə olunmasının həlledici amili Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev olub. Hərbi, diplomatik və informasiya müstəvisində müharibənin zəfərlə başa çatması istqamətində görülən bütün işlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirildi. Bu da möhtəşəm qələbəmiz ilə nəticələndi". Əli Əhmədov Azərbaycanın son yüz illik tarixində ən mühüm hadisələri dörd mərhələyə bölərək onların sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını, 1991-ci ildə müstəqilliyimizin bərpa olunmasını, Ulu Öndər Heydər Əliyev tərəfindən müstəqil Azərbaycan dövlətinin qurulmasını və torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən qələbəmizi qeyd edib. YAP Sədrinin müavini söyləyib ki, Heydər Əliyevin anım gününün qeyd edilməsi Azərbaycanda insanları birləşdirmək gücünə malik olan dövlətçilik ənənəsinə çevrilib. Onun həm doğum, həm də anım gününün insanlar tərəfindən böyük hörmət və ehtiramla qeyd edilməsi, əslində Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir. Əli Əhmədov qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik illəri ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb. Sovetlər dönəmində Onun Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə əzəmətli sıçrayış və yeniləşmə illəri kimi daxil olub. Məhz Onun müdrikliyi, qətiyyəti, təşkilatçılığı sayəsində iqtisadi böhran şəraitində olan respublika ən qısa vaxtda sürətli sosial-iqtisadi yüksəliş mərhələsinə daxil ola bildi. Azərbaycan cəmi bir neçə il ərzində ən geridə qalan respublikadan ən qabaqcıl respublikaya çevrildi, sənayesi inkişaf etdirildi, güclü aqrar-sənaye kompleksi formalaşdı. Azərbaycanın iqtisadi inkişafı xalqın özünəinamını artırdı, milli özünüdərk hissi gücləndi, mənəvi tərəqqi sürətləndi. Elmin, mədəniyyətin, təhsilin inkişafında böyük nailiyyətlər əldə edildi. Bakının milli siması formalaşdırıldı, bütün sahələrdə, o cümlədən idarəçilikdə, mədəniyyətdə milli kadrlar yetişdirildi, milli ruhun yüksəlişi təmin edildi. Bu, əslində Azərbaycanın intibah dövrü idi və o zaman yaradılan bünövrə ölkənin gələcək taleyində müstəsna rol oynadı. "Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə biruzə verib. Azərbaycan xalqı əvəzsiz xidmətlərinə görə Ümummilli Lideri xilaskar adlandırmışdır və hesab edirəm ki, bu, tamamilə məntiqli və ədalətlidir. Heç şübhəsiz, Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyin qorunub saxlanması, onun əbədi və dönməz xarakter alması müstəsna olaraq Heydər Əliyevin xidməti sayılmalıdır və sayılır. 1993-cü ildə Onun qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və sair bəlalardan xilas oldu. Ölkədə sabitlik və əmin-amanlıq təmin edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı. Azərbaycanın iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən böyük neft sazişləri imzalandı, iqtisadi, sosial və siyasi islahatlar strategiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başlandı. Yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı"- deyə, Əli Əhmədov vurğulayıb. Baş nazirin müavini Əli Əhmədov daha sonra qeyd edib: "Bu gün istər ölkə daxilində, istər ölkədən kənarda hamı Heydər Əliyevi müstəqil Azərbaycan dövlətinin memarı sayır. Qeyd olunmalı əsas məqam isə odur ki, Heydər Əliyev siyasəti ölkənin inkişafının, müasirləşməsinin və yeniləşməsinin əsasını təşkil edir. 2003-cü ildən bu günə qədər Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında möhtəşəm inkişafında bu siyasət həlledici rol oynayıb və oynamaqdadır. Azərbaycanın müasirləşməsi, yeniləşməsi baş verib, şəhər və kəndlərin siması kökündən dəyişib. Bu gün Azərbaycan dünyanın ən uğurlu gənc dövləti kimi qəbul olunur, onun parlaq gələcəyinə hamı inanır. Ölkəmizin beynəlxalq nüfuzunun artması, mövqeyinin güclənməsi, bir çox beynəlxalq reytinqlərdə ən mötəbər yerlərdə qərar tutması insanların qürur mənbəyinə çevrilib. Azərbaycan inkişaf edir, yenilənir, müasirləşir. Son vaxtlar uğurla həyata keçirilən islahatlar ölkəni inkişafın keyfiyyətcə yeni mərhələsinə aparır. Qarşıda böyük hədəflər dayanır. Azərbaycan Heydər Əliyevin qoyduğu yolla gedərək ən uğurlu ölkə adını hələ uzun illər qoruyacaq". Tədbirdə çıxış edən YAP Sədrinin müavini Əli Həsənov Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. O qeyd edib ki, Heydər Əliyevin zəngin irsi bundan sonra da dərindən öyrənilməli, bu irsin geniş tədiqi olunması üçün akademiya yaradılmalıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova isə bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük dühalardan biridir. O qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi elə bir tarixi şəxsiyyətdir ki, Onun haqqında danışanda yalnız həyatı və fəaliyyəti barədə deyil, dövlət idarəçiliyində təmsil olunduğu və Azərbaycan xalqının mühüm tarixi dövrünü əhatə edən bütöv bir qərinədən bəhs etmək lazım gəlir. Ona görə ki, Ümummilli Lider Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa, onun inkişafına, minilliklərin süzgəcindən keçib gələn milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılmasına həsr edib. Çıxış edən YAP Siyasi Şurasının üzvü, BDU-nun professoru Şahlar Əsgərov da Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib, Ümummilli Liderimizin aforizmlərindən nümunələr söyləyib. YAP Gəncə şəhər təşkilatının könüllüsü, Dövlət Aqrar Universitetinin tələbəsi Peykər İbrahimova Ulu Öndər Hedər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasətinin uğurlarından bəhs edib.





***Ceyhun Rasimoğlu***

# Milli Məclisin payız sessiyasında növbəti iclası keçirilib

***Dekabrın 11-də Milli Məclisin payız sessiyasında növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Sahibə Qafarova dünən Azadlıq Meydanında keçirilmiş möhtəşəm Zəfər paradından danışıb. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən bu parad Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. “Vətən Müharibəsində işğalçı Ermənistan silahlı qüvvələrini darmadağın edərək dövlətimizin ərazi bütövlüyünü bərpa etmiş, döyüş meydanında nəyə qadir olduğunu göstərmiş Azərbaycan Ordusunun əzmini və qüdrətini bütün dünya bir daha görüb yəqin etdi.***



Paradda Türkiyənin siyasi və dövlət xadimlərinin, əsgər və zabitlərinin iştirakı bayram əhval-ruhiyyəsini daha da artırdı. Bildiyiniz kimi, Qarabağ uğrunda qurtuluş savaşının ilk saatlarından Türkiyə qardaş ölkə olaraq siyasi-diplomatik və mənəvi dəstəyi ilə Azərbaycanın yanında yer almışdır.

Türkiyənin bu möhtəşəm tədbirdə bizimlə birgə olmasının çox dərin mənası var. Azərbaycanla Türkiyə dost və qardaş ölkələrdir və onların arasında münasibətlər bir millətin iki dövləti arasındakı münasibətlərdir. Möhtərəm Prezidentimizin dediyi kimi, “Azərbaycanla Türkiyənin birliyi artıq reallıqdır”.

Hərbi paradda nümayiş etdirilən ən müasir hərbi texnika, o cümlədən raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, təyyarələr, hərbi gəmilər Azərbaycan dövlətinin hərbi qüdrətini nümayiş etdirməklə yanaşı, həm də onu göstərdi ki, bundan sonra heç kəs bir daha Azərbaycanla güc və təzyiq dili ilə danışa bilməz. Bizim rəşadətli Ordumuz, peşəkar əsgər və zabitlərimiz, xalqımızın arxalandığı müdrik rəhbərimiz var.

Eşq olsun müzəffər Ali Baş Komandan İlham Əliyevə!

Eşq olsun qəhrəman Ordumuza!

Qarabağ Azərbaycandır!”,- deyə Sahibə Qafarova vurğulayıb.

Daha sonra sədr bildirib ki, bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətimizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun - “YAŞAT” fondunun yaradılması haqqında Fərman imzalayıb. Bu fondun yaradılması cəmiyyətimizdə birlik və həmrəyliyin, yardımlaşma ruhunun daha da güclənməsinə töhfə verəcək. Milli Məclis bu cür humanitar aksiyalarda həmişə fəal iştirak edib.

Sədr Milli Məclisin deputatlarını, Aparatın və İşlər İdarəsinin əməkdaşlarını bu nəcib təşəbbüsə qoşulmağa, yaradılmış yeni fonda könüllü surətdə maliyyə vəsaiti köçürməyə dəvət edib.

Gündəlik təsdiqləndikdən sonra Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin ilk iki məsələsi Milli Məclisin qərar layihələridir. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il dekabrın 12-də saat 00.00-dan Hərbi vəziyyətin ləğv olunması haqqında Fərman imzalayıb və Fərman təsdiq edilmək üçün Milli Məclisə göndərilib. Məsələ barədə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovun məlumatı dinlənildikdən sonra qərar layihəsi səsə qoyularaq təsdiqlənib.

Sonra iclasda Hesablama Palatasının sədrinin təyin edilməsi barədə məsələ müzakirə olunub. Milli Məclisin sədri bildirib ki, qanunvericiliyə uyğun olaraq Hesablama Palatasının sədri vəzifəsinə Vüqar Gülməmmədovun namizədliyi irəli sürülüb. O, 7 ildir ki, Hesablama Palatasına uğurla rəhbərlik edir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin məlumatı dinlənildikdən sonra deputatlar Vüqar Gülməmmədovun yenidən Hesablama Palatasının sədri təyin edilməsi barədə Qərar layihəsini səsə qoyaraq təsdiqləyiblər.

Çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ona göstərilən etimada görə təşəkkürünü ifadə edib və var qüvvəsi ilə bu etimadı doğrultmağa çalışacağını bildirib. Sonra sədr diqqətə çatdırıb ki, gündəliyin növbəti 10 məsələsi birinci oxunuşda olan qanun layihələridir.

Əvvəlcə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) məsələ barədə məlumat verib. Bildirib ki, təklif olunan dəyişiklik bank sisteminin inkişafına xidmət edir və həm dövlət, həm də özəl bankların eyni rəqabət mühitində fəaliyyət göstərməsinə şərait yaradacaq. Dəyişiklik səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəlikdəki iki məsələni - “Əmanətlərin tam sığortalanması haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) və “Əmanətlərin sığortalanması haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) şərh edib.

Nəzərə çatdırıb ki, ölkəmizdə 2016-cı ilin martından tətbiq olunan əmanətlərin tam sığortalanması qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyinin qorunmasında, bank sistemində sabitliyin tam təmin edilməsində, əmanətçilərin bank sisteminə etibarının artırılmasında mühüm rol oynayıb.

Bildirilib ki, 4 il 9 ay ərzində qüvvədə olan bu qanunun müddəti iki dəfə uzadılıb, sonuncu müddət cari ilin dekabrın 4-də başa çatıb. Təqdim olunmuş layihədə qanunun qüvvədə olma müddətinin 2021-ci ilin 5 aprel tarixinədək uzadılması təklif olunur.

Komitə sədri qeyd edib ki, beynəlxalq təcrübə əmanətlərin tam sığortalanması sxemindən çıxış üçün effektiv strategiyanın olmasının vacibliyini göstərir. Bununla əlaqədar “Əmanətlərin sığortalanması haqqında” qanun layihəsində fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləğinin 30 min manatdan 100 min manata (xarici valyutada 100 min manat ekvivalentinədək) artırılması təklif olunur. Bu müddəa 2021-ci ilin 5 aprel tarixindən qüvvəyə minəcək. Həmçinin fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitlərinin sığortalanması (kompensasiya məbləği 20 min manat müəyyən edilməklə) təklif olunur.

Yeni qanun layihəsinə görə, notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitlərinin tam məbləğdə sığortalanması da nəzərdə tutulur ki, bu dəyişiklik notariuslar vasitəsilə həyata keçirilən alqı-satqı əməliyyatları, xüsusilə ev alqı-satqısı zamanı maliyyə xidməti istehlakçılarının hüquqlarının qorunmasını özündə ehtiva edir.

Milli Məclisin deputatları Əli Məsimli, Vüqar Bayramov, Zahid Oruc, Aydın Mirzəzadə, Qüdrət Həsənquliyev, Rüfət Quliyevin fikirləri dinlənildikdən sonra komitə sədri Tahir Mirkişili qaldırılan məsələlərə münasibət bildirib. Sonra hər iki layihə ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda təsdiqlənib.

Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər barədə (birinci oxunuş) Sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Bildirib ki, sentyabrın 27-dən başlayan 44 günlük müharibə ilə Azərbaycan ordusu müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalqımıza unudulmaz zəfər bəxş edib. Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər də bu tarixi günlərin əbədiləşdirilməsi ilə bağlıdır.

Belə ki, Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər ölkə başçısının 2 dekabr 2020-ci il tarixli “Azərbaycan Respublikasında Anım gününün təsis edilməsi haqqında” və 3 dekabr 2020-ci il tarixli “Azərbaycan Respublikasında Zəfər gününün təsis edilməsi haqqında” Sərəncamlarından irəli gəlib. Layihəyə əsasən Əmək Məcəlləsinin 105-ci maddəsində nəzərdə tutulan bayram günlərinin siyahısına 8 noyabr - Zəfər günü də əlavə edilir və qeyri-iş günü olan bayram günlərinə aid edilir. Digər bir dəyişikliklə isə Məcəlləyə yeni - 106.1-ci maddə əlavə edilir: “Hər il sentyabrın 27-si Azərbaycan Respublikasının işğal altındakı torpaqlarının azad edilməsi uğrunda həlak olan şəhidlərin xatirəsini yad etmə günü - “Azərbaycan Respublikasında Anım günü”dür. Həmin gün iş günü hesab edilir. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

“Təhsil haqqında” Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və “Bədən tərbiyəsi və idman haqqında”, “Peşə təhsili haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) məlumat verən Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bildirib ki, birinci layihəyə edilən dəyişikliklər texniki xarakter daşıyır, qanundakı terminlərin dəqiqləşdirilməsi, təhsil haqqında dövlət sənədlərinin verilməsi sahəsində elektron informasiya sistemlərinin tətbiqini nəzərdə tutur.

Komitə sədri “Bədən tərbiyəsi və idman haqqında”, “Peşə təhsili haqqında”, “Ümumi təhsil haqqında” qanunlarda dəyişikliyin isə qanunvericiliyin təkmilləşdirilməsi, peşə təhsili və ümumi təhsil haqqında dövlət sənədlərinin müvafiq qayda ilə “Təhsil Mərkəzləşdirilmiş İnformasiya sistemi” üzərindən formalaşdırılması məqsədilə hazırlandığını diqqətə çatdırıb. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin birinci oxunuşu barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov məlumat verib.

Bildirib ki, bu dəyişikliklər ölkəmizdə ticarətin daha da inkişafı üçün malların gömrük rəsmiləşdirilməsində vaxt itkisinin minimuma endirilməsi və təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Dəyişikliklər xarici ölkələrin qeydiyyatında olan avtonəqliyyat vasitələrinin ölkəmizə daxil olması zamanı yol vergisinin ödənişinə sərf olunan vaxt itkisini azaldacaq. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin son iki məsələsi - Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi barədə və “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Qanunda dəyişiklik edilməsi barədə məsələlərin birinci oxunuşu haqqında Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib.

Bildirib ki, nəzərdə tutulan dəyişikliklər karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar olaraq, Milli Məclisin iclaslarının, habelə Milli Məclisin komitə və komissiyalarının iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi məsələlərini özündə əks etdirir.

Deputatlardan Fazil Mustafa, Elşən Musayev və Hikmət Məmmədovun fikirləri dinlənildikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin iclası başa çatıb.

# Qüdrətli Azərbaycan arzusu gerçək olan Ümummilli lider



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Siyavuş Novruzov*

XX əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycan xalqımızın Ümummilli lideri Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi sayəsində xaos və tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoyub. Müstəqillik dövründə Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dönəm inkişaf və sabitlik illəri kimi yadda qalıb. Bu gün isə Ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirib. Bir sözlə, ölkəmizin bugünkü reallıqları Ümummilli liderin qüdrətli Azərbaycan arzusunun gerçək olduğunu göstərir.

### İctimai-siyasi sabitliyin və təhlükəsizliyin təmin olunduğu Azərbaycan

İnkaredilməz həqiqətdir ki, Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz xaos və anarxiyadan xilas edildi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək niyyətlərinin qarşısı alındı. Və bu gün Azərbaycan sabitlik və təhlükəsizlik adası kimi tanınır. Təbii ki, bu gerçəkliyi təmin edən amil Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

### Müasir, hüquqi və demokratik dövlət

Bunlarla yanaşı, Ümummilli liderin rəhbərliyi ilə hüquqi, demokratik dövlət quruculuğuna xidmət edən tədbirlərin reallaşdırılması müasir müstəqil Azərbaycanın inkişaf yolunda əmin addımlarla irəliləməsinə xidmət edib. Bu baxımdan, ölkədə ilk parlament seçkilərinin keçirilməsi, ümumxalq səsverməsi - referendum vasitəsilə Konstitusiyanın qəbul edilməsi, məhkəmə islahatlarının aparılması, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar xüsusi qeyd edilməlidir. Bütün bunlar Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini şərtləndirib. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, bütün sahələri əhatə edən köklü islahatların həyata keçirilməsi Azərbaycanın müasir, hüquqi və demokratik dövlət kimi yeni nailiyyətlər qazanmasını təmin edib.

### Dayanıqlı iqtisadi inkişaf Heydər Əliyev siyasi kursunun ən böyük uğurlarındandır

Ulu öndər Heydər Əliyev, eyni zamanda, ölkəmizin iqtisadi inkişafının əsasını qoyub. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə əsası qoyulan enerji strategiyasının uğurla icra olunması Azərbaycanın iqtisadi inkişafına xidmət edib, mühüm beynəlxalq əməkdaşlıq platformaları yaradılıb. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf yolunda qətiyyətlə addımlayır, tərəqqi bütün sahələri əhatə edir. Son 17 ildə ölkəmizdə ümumi daxili məhsul istehsalının, qeyri-neft sahəsində ÜDM-nin, sənaye məhsulu istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatı məhsulları istehsalının artması iqtisadi inkişafın Azərbaycan modelinin nümunəsidir. Heç şübhəsiz, müstəqil siyasət, güclü maliyyə imkanları və sürətli iqtisadi inkişaf bundan sonra da Azərbaycana yeni tarixi nailiyyətlər əldə edərək öz qüdrətini daha da artırmaq imkanı verir.

### Vətəndaş məmnunluğunun və sosial ədalətin təmin olunduğu Azərbaycan

Ümummilli liderimizin həyata keçirdiyi inkişaf siyasətinin əsas istiqamətlərindən birini həm də insanların rifahının yüksəlməsini, əhalinin sosial müdafiəsinin gücləndirilməsini təşkil edib. Son 17 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə görülən işlər vətəndaş məmnunluğunu, sosial ədaləti təmin edib. Əməkhaqlarının, pensiyaların mütəmadi olaraq artırılması, işsizlik və yoxsulluq səviyyəsinin azalması, əhalinin məşğulluğunun artması, əhalinin bütün təbəqələrinin dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunması və digər mühüm göstəricilər ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını təsdiqləyir.

### Xalq-iqtidar birliyi və sarsılmaz milli həmrəylik

Qeyd etdiyimiz kimi, Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam etdirilir, Prezident İlham Əliyevin rəhbərlik etdiyi vahid komandanın uğurlu fəaliyyəti ölkəmizin sürətli inkişafını təmin edir. Həmçinin Azərbaycan xalqı öz Prezidentini dəstəkləyir, ölkəmizdə sıx xalq-iqtidar birliyi, sarsılmaz milli həmrəylik mövcuddur. Ona görə də Azərbaycan xalqına və dövlətinə qarşı istənilən qarayaxma kampaniyası, təxribat cəhdi hər zaman iflasa məhkumdur.

### Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında

Ümummilli lider tərəfindən həyata keçirilən siyasətin çox əhəmiyyətli istiqamətlərindən birini ordu quruculuğu təşkil edib. Onun əsasını qoyduğu işlərin uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan güclü orduya malikdir. Bununla yanaşı, ordumuz bu gün ən müasir texnika və silahlarla təmin olunub, ölkəmizin hərbi sənaye kompleksi inkişaf edir. Bunlarla yanaşı, kadr potensialının inkişafı, orduda peşəkarlığın daimi olaraq yüksəldilməsi Silahlı Qüvvələrimizin gücünü artıran çox əhəmiyyətli amildir. Bir sözlə, Azərbaycan Ordusunun hərbi-texniki təchizat səviyyəsi müasir tələblərə və NATO standartlarına uyğundur, kadr-mütəxəssis ehtiyatı isə öz vəzifələrini layiqincə yerinə yetirən peşəkarlardan ibarətdir. Qürurverici haldır ki, Azərbaycan Ordusu öz gücünü döyüş meydanında göstərib. Ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğal altındakı ərazilərimizi azad edib.

### Torpaqlarımızın işğaldan azad edilməsi zəngin dövlətçilik tariximizin ən böyük qələbəsidir

Bu gün Azərbaycan xalqı dövlətçilik tariximizin ən şərəfli səhifələrinin yazılmasına şahidlik edir. 44 günlük Vətən müharibəsinin Azərbaycanın tam qələbəsi ilə başa çatması, Ermənistanın işğalı altında olan torpaqlarımızın azad olunması dünya azərbaycanlıları tərəfindən böyük sevinc və qürur hissi ilə qeyd olunur. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə hərbi, siyasi və diplomatik sahələrdə uğurlu fəaliyyətin həyata keçirilməsi, xalq-iqtidar birliyi şanlı qələbəmizi, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həllini təmin etdi. Qüdrətli Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlar apararaq 44 gün ərzində Ermənistanın silahlı qüvvələrini darmadağın etməsi, düşmənin məğlub olaraq qarşımızda diz çökməsi və təslim olması xalqımızın tarixi zəfəridir. Bir sözlə, Ümummilli liderimizin torpaqlarımızın işğaldan azad olunması istiqamətində əsasını qoyduğu işin Onun layiqli davamçısı olan Ali Baş Komandanımız İlham Əliyev tərəfindən başa çatdırılması zəngin dövlətçilik ənənələrinə malik Azərbaycanın ən böyük qələbəsidir.

# Hikmət Babaoğlu: Ümummilli Liderin həyata keçirdiyi işlərin böyüklüyü illər keçdikcə daha aydın görünür

***Dekabrın 12-si böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsini minnətdarlıqla və böyük ehtiramla yad edir. Heç tərəddüdsüz demək olar ki, bu günün müstəqil və qüdrətli Azərbaycanı böyük dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin şah əsəridir.***

Hazırda Azərbaycanın iqtisadi, mədəni, siyasi, sosial həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın. Azərbaycanın ən yeni tarixinin böyük bir erası məhz onun adı ilə bağlıdır. AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat vurğulayıb ki, Heydər Əliyev erası Azərbaycanda quruculuq, inkişaf, sabitlik, tərəqqi, müstəqillik dövrüdür. Müasir mərhələdə Azərbaycanın inkişafı da məhz ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş iqtisadi, siyasi, mədəni, intellektual əsaslarda baş tutur. Heydər Əliyev ideoloji baxımdan iki ziddiyyətli dövrdə - respublikamız Sovet İttifaqının tərkibində olanda və müstəqillik dövründə Azərbaycana rəhbərlik edib, amma hər iki dövrün bir səciyyəvi cəhəti var. Bu da ondan ibarətdir ki, hər iki dövrdə o, Azərbaycan dövlətçiliyinin, xalqının inkişafına, onun mənafeyinə xidmət edib.



H.Babaoğlunun sözlərinə görə, bu gün böyük fəxarətlə bəhs etdiyimiz azərbaycançılıq məfkurəsi, multikulturalizm ideyaları, tolerantlıq məsələlərinin hamısı böyük dövlət xadiminin hələ sovet dövründə Azərbaycanda həyata keçirdiyi siyasətlə bağlı olub. Bu gün Azərbaycan cəmiyyətinin intellektual lokomotivi hesab edilən böyük ziyalı ordusunun yaranmasında Heydər Əliyevin danılmaz rolu var. Deputat, həmçinin qeyd edib ki, Ulu Öndərin Azərbaycan ədəbiyyatının inkişafında, mədəniyyət, ədəbiyyat xadimlərinin SSRİ-nin ideoloji repressiyalarından qorunmasında böyük xidmətləri olub. Bunlarla yanaşı, Ulu Öndərin milliliyə və milli dəyərlərə xüsusi önəm verməsi ölkəmizin həyatında mühüm rol oynayıb. Bu gün biz paytaxtımız Bakı haqqında danışanda onu Azərbaycanın milli şəhəri kimi təqdim edirik. Ümummilli lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri də ötən əsrin 70-ci illərinə qədər SSRİ-nin kosmopolit şəhəri kimi tanınan bir şəhərin daha sonralar millliləşdirilməsi olub.

"Müstəqillik dövründə ölkənin vətəndaş müharibəsindən xilas olması, Ermənistanla atəşkəsin əldə edilməsi, güclü ordu quruculuğu, Azərbaycanın bu gün uğurla həyata keçirilən neft strategiyasının, səmərəli xarici siyasətinin əsasları da məhz böyük dövlət xadimi tərəfindən qoyulub. Ən əsası, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması da Heydər Əliyev siyasətinin Prezident, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində mümkün olub. Bütövlükdə, əgər biz Azərbaycan tarixində Heydər Əliyev dövrünü xarakterizə etsək, deyə bilərik ki, bu, Azərbaycan xalqının sosial-siyasi tarixində milli neokonservativizm dövrüdür. Yəni, bu, həm cəmiyyətin tarixi, milli ənənələrinin qorunması, həm də onun üzərindən yeni dəyərlərin mənimsənilməsi və qəbul edilməsi mərhələsidir ki, bu da müasir Azərbaycanın sosiokulturoloji və etnokulturoloji strukturunun yaranmasında əvəzedilməz rol oynayıb", - deyə Hikmət Babaoğlu qeyd edib.

Deputat vurğulayıb ki, Heydər Əliyev dövrü Azərbaycanın inkişaf, sabitlik, tərəqqi, müstəqillik mərhələsi, dövlət müstəqilliyinin təməllərinin çox ciddi və möhkəm əsaslarda qoyulduğu dövrdür. Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir. Çünki illər keçdikcə Ümummilli Liderimizin gördüyü işlərin böyüklüyü, möhtəşəmliyi daha aydın görünür, daha yaxşı dərk edilir.

# Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük dühalardan biridir



*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradovanın yap.org.az-a müsahibəsi*

**- Bahar xanım, dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür. Fəaliyyəti XX əsr Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlər haqqında fikirlərinizi bilmək istərdik...**

- Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi elə bir tarixi şəxsiyyətdir ki, Onun haqqında danışanda yalnız həyatı və fəaliyyəti barədə deyil, dövlət idarəçiliyində təmsil olunduğu və Azərbaycan xalqının mühüm tarixi dövrünü əhatə edən bütöv bir qərinədən bəhs etmək lazım gəlir. Ona görə ki, Ümummilli Lider Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa, onun inkişafına, milliliklərin süzgəcindən keçib gələn milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılmasına həsr edib.

Birmənalı şəkildə demək olar ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlər göstərib. Bu xidmətləri tarixin yaddaşına qızıl hərflərlə yazılıb.

Heç şübhəsiz, qətiyyətlə demək olar ki, Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük dühalardan biridir. O, Öz fəaliyyəti ilə təkcə böyük şəxsiyyət olduğunu nümayiş etdirməyib, həm də malik olduğu qətiyyət və siyasi iradə sayəsində mənsub olduğu xalqı və qurduğu dövləti dünya miqyasında tanıda bilib. Ona görə də hesab edirəm ki, Azərbaycan xalqı yaşadıqca onun şüurunda, təfəkküründə və yaddaşında Ulu Öndərin özünəməxsus yeri olacaq. Onun xidmətləri zaman-zaman müzakirə predmeti, araşdırma və tədqiqat obyekti olacaq. Gələcək nəsillər, o cümlədən Heydər Əliyev irsinə müraciət edənlər bu irsin bütün calarlarını üzə çıxarmaqla yanaşı, həm də bu şəxsiyyətin zəngin irsindən bəhrələnəcəklər. Ən nəhayət, Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq.

**- Azərbaycana rəhbərliyinin birinci dövründə mərkəzi hakimiyyətin bütün təzyiq və əngəllərinə rəğmən, Ulu Öndər Heydər Əliyevin xalqının gələcəyi naminə atdığı tarixi addımlar və gördüyü mühüm işlərdən, onların əhəmiyyətindən bəhs etməyinizi xahiş edirik...**

- Ulu Öndər sovet dövründə Azərbaycanın birinci şəxsi olanda mövcud imkanlarından maksimum yararlanaraq tarixi əhəmiyyətli və gələcəyə yönəlmiş addımlar atdı. Məsələn, Azərbaycan dilinin Azərbaycanın 1978-ci il Konstitusiyasında dövlət dili kimi rəsmiləşdirilməsi, təhsil və elm sahəsində ana dilimizdə nəşrlərin sayının artması bunlara misal ola bilər.

Digər tərəfdən, ittifaq dövlətinin bir sıra resurslarının respublikanın hərtərəfli inkişafı ücün yönəldilməsi barədə vacib qərarların qəbul edilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Onun rəhbərlik etdiyi dövrdə Azərbaycan inkişaf etmiş sənaye potensialına malik respublikaya çevrildi. Bu zaman mərkəzi hakimiyyətin tələblərini yerinə yetirməklə yanaşı, ittifaqa göndərilən məhsulların çox hissəsinin Azərbaycana investisiya və maliyyə qismində geri qaytarılması, ayrı-ayrı sənaye sahələrinin yaradılması vasitəsilə xalqın bütün potensialını inkişafa yönəltməklə genişmiqyaslı tərəqqinin təməli atıldı.

Həmin dövrdə o vaxta qədər Azərbaycanda mövcud olmayan və çatışmayan kadrların yetişdirilməsi, bir çoxlarının ittifaq təhsil müəssisələrinə göndərilməsi gələcəyə hesablanmış addımlar idi. Eyni zamanda hərbi sahədə kadrların yetişdirilməsi üçün Ulu Öndər böyük işlər görüb. Bakıda C.Naxçıvanski adına hərbi məktəbin yaradılması, ittifaqın hərbi kadrlar hazırlayan ali məktəblərinə azərbaycanlıların göndərilməsi də məhz həmin uzaqgörən siyasətin nəticəsi idi. Zaman da göstərdi ki, həmin hərbi kadr potensialı Qarabağ uğrunda gedən müharibədə Azərbaycanın zabit və komandirlərə olan ehtiyacını aradan qaldırdı. Ona görə də bu addımları birmənalı şəkildə müstəqilliyin bünövrəsi hesab etmək olar.

Digər bir məqam o idi ki, Azərbaycanda hakimiyyətinin birinci dövründə Heydər Əliyev mərkəzdən olan təzyiq və maneələrə baxmayaraq, xalqın yetişdirdiyi milli təfəkkürlü elm, təhsil və mədəniyyət xadimlərini, o cümlədən ziyalıları qoruyurdu. Bu da sübut edir ki, O, təkcə Azərbaycanın sərvətlərinin, iqtisadiyyatının inkişafına deyil, xalqın yetişdirdiyi ziyalılara da diqqət və qayğı göstərirdi. Məhz həmin ziyalılar da 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində mərkəzdənqaçma meyillərinin gücləndiyi vaxtda Azərbaycanda yeni ictimai-siyasi təfəkkürün formalaşmasında, ictimai şüurda dəyişikliyin yaranmasında yaxından iştirak edirdilər.

Təbii ki, həmin potensial olmasaydı, ermənilərin separatizm meyillərinə qarşı xalqın kütləvi müqavimətini təşkil etmək mümkün olmazdı. Yəni xalqın milli özünüdərk hissinin oyanmasının təməlində məhz Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə yürütdüyü siyasət dayanırdı. Sonradan bu özünüdərk Ümummilli Liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtması və müstəqil dövlət qurmaq imkanı və bu yöndə məqsədlərin reallaşması üçün istifadə edildi.

**- Müstəqilliyimizin bərpasından sonra Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi ilə üzüzə qaldı. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanı bütün təhlükələrdən xilas edərək dövlətimizin müstəqilliyini əbədi və dönməz etdi. Bu barədə nə deyə bilərsiniz?**

- Əlbəttə, həmin dövrdə olduqca təhlükəli vəziyyət yaranmışdı və doğrudan da Azərbaycan parçalanmaqdan, vətəndaş müharibəsindən qurtuldu. Xalqın xilası üçün yeganə istinadgah olan Heydər Əliyevin sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı.

Məlum olduğu kimi, təsadüfən hakimiyyətə yiyələnən, heç bir iqtisadi və siyasi konsepsiyası, proqramı olmayan AXC-Müsavat cütlüyünün səriştəsiz fəaliyyəti dövlət quruculuğunda və dövlət idarəçiliyində, habelə xalqın müdafiə qabiliyyətini müharibə şəraitində olan Azərbaycanın təhlükəsizliyinə yönəltmək işində uğur qazanılmasını istisna edirdi. Son nəticədə müstəqillik əldə etdikdən qısa müddət sonra Azərbaycan nəinki müstəqilliyin itirilməsi, ümumiyyətlə, parçalanma təhükəsi ilə üz-üzə qaldı. Belə bir məqamda xalqın verdiyi düzgün qərar Heydər Əliyevə müraciət olunması və təkidlə hakimiyyətə qayıtması oldu.

Ulu Öndərin hakimiyyətdə kifayət qədər mühüm posta seçilməsi bu prosesi təhlükəsiz məcraya, vətəndaş müharibəsindən xilas yoluna yönəltməyə imkan verdi. Çünki Heydər Əliyevin gəlişi Azərbaycanı vətəndaş qarşıdurmasından xilas etdi, qısa müddətdə ölkədəki separatçı qüvvələrin fəaliyyətinə son qoyuldu. Tarix də göstərdi ki, həmin qərar Azərbaycan xalqının və dövlətinin sonrakı taleyinin həllində, dövlətçiliyinin bünövrəsinin qoyulmasında əsas amil kimi çıxış edib.

Burada mühüm məqamı qeyd etmək istərdim ki, Azərbaycan Prezidenti seçildikdən sonra Ümummilli Liderin birbaşa xalqa müraciəti və bundan sonra könüllü olaraq kütləvi şəkildə cəbhəyə yollanan vətən övladlarının qəhrəmanlığı sayəsində Azərbaycan Ordusunun 1994-cü ilin yanvarında həyata keçirdiyi Horadiz əməliyyatı ilə Füzuli rayonunun 22 kəndi və 1 qəsəbəsi işğaldan azad olundu. Nəticədə düşmən atəşkəsə razı oldu və əldə olunan atəşkəsdən sonra Azərbaycan dövlət quruculuğu mərhələsinə qədəm qoydu.

Bundan sonra ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, iqtisadi tənəzzüldən xilas edilməsi, daxili ictimai-siyasi sabitliyin təmin olunması və xarici siyasətinin müəyyənləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Bu da keçmiş iqtidarın fəaliyyəti nəticəsində ölkənin düşdüyü siyasi blokadadan, izolyasiyadan qurtulmaq üçün zəmin yaratdı. Ümummilli Lider keçmiş hakimiyyətin yanlış siyasəti nəticəsində münasibətlərin gərgin olduğu region dövlətləri ilə, habelə dünya siyasətində həlledici rola malik böyük güclərlə əməkdaşlığın mümkün olmasını sübut etdi.

Bütün bunlar da Azərbaycanın siyasi və iqtisadi potensialı yüksək olan bir dövlət kimi formalaşmasına, hətta dünyanın aparıcı dövlətləri ilə tərəfdaş qismində çıxış etməsinə imkan yaratdı. Azərbaycanın bu mövqeyə çıxması onun gələcək təhlükəsizliyinə zənanət verən münasibətlərin qurulmasi, bu kontekstdə beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində milli maraqların qətiyyətlə təmin olunması baxımından mühüm tarixi əhəmiyyət daşıyır.

Ulu Öndərin hakimiyyətə qayıdışından sonra qanunvericilik sahəsində islahatlar aparıldı, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi, ilk parlament seçkiləri keçirildi, gənclər siyasəti, mədəniyyət, idmanın inkişafı sahəsində addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini xilas etməklə yanaşı, ölkəmizdə yaşayan bütün xalqların və millətlərin hüquqlarının təminatçısı olduğunu sübuta yetirdi. Bununla da əsl vətəndaş cəmiyyətinin qurulmasına zəmin yaratdı. O, həmçinin xaricdə yaşayan soydaşlarımızın təşkilatlanmasına, Azərbaycan diasporunun formalaşdırılmasına, dünya azərbaycanlılarının vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsinə nail oldu.

Azərbaycan müstəqillik tarixinin Heydər Əliyevin hakimiyyətinə təsadüf edən həmin 10 illik dövrü Ulu Öndərin Azərbaycan xalqını ağır vəziyyətdən çıxararaq uğura qovuşdurması, müstəqilliyinin, eyni zamanda bu müstəqilliyin dönməzliyinin, əbədiliyinin təmin olunması ilə yadda qalır.

Ümummilli Liderin hakimiyyəti dövründə Azərbaycan Respublikası beynəlxalq təşkilatların bərabərhüquqlu üzvünə çevrildi. Azərbaycanın daha uğurlu beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı kimi çıxış etməsi, bəzilərinin həyata keçirilməsi və digərlərinin də əsasının qoyulması Ulu Öndərin adı ilə bağlıdır. Azərbaycan nəinki öz təbii ehtiyatlarının, digər dövlətlərin də enerji ehtiyatlarını Azərbaycandan keçməklə dünya bazarına çıxaracaq beynəlxalq əhəmiyyətli layihələrə imza atdı. Yeni neft və qaz yataqlarının işlənməsi üçün xarici dövlətlərin nüfuzlu şirkətləri ilə müqavilələr imzaladı. “Əsrin müqaviləsi” sazişinin imzalanması ilə dünyanın aparıcı dövlətlərinin nüfuzlu şirkətlərinin iştirak etdiyi konsorsiumların yaranmasına nail oldu. Azərbaycan daha genişmiqyaslı tərəfdaşlar əldə etmək dövrünə qədəm qoydu. Ölkəmiz 1992-ci ildən BMT-yə, ATƏT-ə və bir çox beynəlxalq təşkilatlara üzv olmuşdu. Avropa Şurası başda olmaqla digər nüfuzlu beynəlxalq təşkilatlara üzvlük nəticəsində isə Azərbaycan insan hüquq və azadlıqlarının qorunduğu bir məkanın bərabərhüquqlu iştirakçısına çevrildi. Və biz bu vəzifənin hansı çətin və məsuliyyətli bir dövrdə yerinə yetirilməsi haqqında məlumatları bugünkü və gələcək nəslə çatdırmalıyıq ki, müstəqilliyin nəyin bahasına qorunub saxlandığını dərk etsinlər və unutmasınlar.

**- Bahar xanım, Sizin də qeyd etdiyiniz kimi, Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin bütün mərhələləri göstərir ki, müasir müstəqil Azərbaycanın inkişafı məhz Onun yorulmaz, çoxşaxəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heç kimə sirr deyil ki, Ulu Öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və realliqlarına müvafiq surətdə uğurla davam etdirilir. Bu baxımdan, müasir müstəqil Azərbaycanın hazırkı və gələcək inkişafını necə dəyərləndirirsiniz?**

- Bu bir faktdır ki, Ümummilli Liderin ən böyük xidmətlərindən biri Azərbaycan dövlətinin sonrakı dövr üçün inkişafını, xalqın bugünkü və gələcək rifahını, təhlükəsizlik, sabitlik və tərəqqi şəraitində yaşamasının dönməzliyini təmin edən siyasi xadimi yetişdirməsi oldu.

Təbii ki, Heydər Əliyev irsi Azərbaycanın gələcək inkişafı üçün fundamental əsas kimi çıxış edir. Lakin XXI əsrin əvvəlində dünyadakı proseslər də dəyişirdi. 2003-cü ilin ortalarında Ulu Öndərin qəbul etdiyi vacib qərarlardan biri cənab İlham Əliyevin sonrakı 5 illik dövr üçün prezidentliyə namizədliyinin irəli sürülməsi idi. Yeni Azərbaycan Partiyası da bu qərarı yekdilliklə dəstəklədi. Xalq böyük səs çoxluğu ilə cənab İlham Əliyevi dövlət başçısı seçməklə bu davamlı inkişafın təmin olunmasına böyük dəstək verdi.

Bundan sonra Azərbaycanda inkişaf dövrünün yeni mərhələsi başladı. Ötən 17 ildə Azərbaycanın rifahı, çiçəklənməsi, ölkəmizin regionda və dünyada nüfuzunun daha da artması, beynəlxalq hüququn ən mühüm aktorlarından birinə çevrilməsi, vətəndaşların, dövlətin təhlükəsizliyinin müdafiəsi yönündə çox mühüm addımlar atılıb. Azərbaycan dövlətinin hərtərəfli qüdrətli dövlətə çevrilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin bu illər ərzində atdığı addımlar beynəlxalq dairələr tərəfindən də dəstəklənir. Artıq etiraf edilir ki, Azərbaycan son 17 ildə olduğu qədər qüdrətli və qətiyyətli mövqeyə malik olmayıb.

Xüsusilə qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi, ölkə Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa edilməsinə nail olduq. Bu gün biz bu qələbənin sevincini, onun doğurduğu fəxarət hissini yaşayırıq. Bu illər ərzində birliyə, həmrəyliyə daha çox önəm verən xalqımızın, etnik mənsubiyyətindən, dini inancından asılı olmayaraq bu coğrafiyanın sakinlərinin dövlətimiz üçün çalışmaları öz müsbət nəticəsini verdi. Bu gün biz təkcə vahid Azərbaycan xalqından, dövlətindən və vahid azərbaycançılıq məfkurəsindən deyil, həm də bu əsasda əldə olunan nəticələrin doğurduğu böyük qürur və fəxarətlə müasir dünya tarixinin yenilməz xalqa, müzəffər orduya,Qalib Ali Baş Komandana malik Qüdrətli Azərbaycan Dövlətindən söhbət açırıq. Həmcinin ulu öndərimizin Dəmir yumruğunda xalqının gücünü və birliyini cəmləşdirməyi bacaran,müdrikliyi və qətiyyəti ilə hamını heyran qoyan Varisi haqqında danışırıq.

Bu gün əkbəttə ki, ən böyük minnətdarlığımız partiyamızın Sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevədir. Çünki məhz Onun uzaqgörən və qətiyyətli siyasəti nəticəsində biz qələbəyə nail olduq.

Eyni zamanda, biz Ulu Öndər Heydər Əliyevi böyük ehtiramla yad edirik. Cünki məhz onun müəyyənləşdirdiyi yolla inamla irəliləyən xalqın iradəsi bizi öz ərazi bütövlüyümüzə qovuşdurdu. İnanıram ki, bu yol Azərbaycanın bundan sonra daha da qüdrətli ölkə olmasına öz töhfələrini verəcək.

# Vətən savaşında tarixi zəfər: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ



*İSA HƏBİBBƏYLİ,*
*AMEA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı, akademik*

***Ölkəmizin Dağlıq Qarabağda və ətraf ərazilərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük tarixi hadisəsidir. Tarixin ən müxtəlif dövrlərində Səfəvilərdən Nadir şaha və İosif Stalinə qədər azərbaycanlıların iştirak etdikləri müharibə və yürüşlərdə qazanılmış qələbələrdən heç birində Azərbaycan faktoru indiki qədər mühüm yer tutmamış, ümummilli əhəmiyyət kəsb etməmişdir. Dağlıq Qarabağda və ətraf rayonlarda qazanılmış böyük Zəfər məhz Azərbaycan ərazi naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Ona görə də bu müharibə haqlı olaraq xarakteri etibarilə Vətən müharibəsi adlandırılır. Bu müharibənin Ali Baş Komandanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, icraçısı isə müzəffər Azərbaycan Ordusu və Azərbaycan əsgəridir.***

Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin düşmən əsarətindən xilas edilməsinin ilkin təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi iştirak etdiyi bütün beynəlxalq tədbirlərdəki çıxışlarında Dağlıq Qarabağın xalqımıza məxsus olmasını bəyan etmiş, bu münaqişənin ilk növbədə sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunmasına tərəfdar olduğunu, dialoqla tarixi ədaləti bərpa etməyə səy göstərdiyini bildirsə də, müharibə yolu ilə qələbəyə nail olmaq variantını da nəzərə çarpdırmışdır. Lissabon sammitində ölkəmizin ərazi bütövlüyünün beynəlxalq ictimaiyyət tərəfindən bir daha yekdilliklə tanınması və Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağdakı ərazilərimizin işğaldan azad edilməsi haqqındakı qətnamələrinin yerinə yetirilməsinin dəstəklənməsi ulu öndər Heydər Əliyevin apardığı müdrik siyasətin uğurlu nəticəsi idi.

Görkəmli dövlət xadimi Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinin formatını müəyyən etmiş, beynəlxalq miqyasda həmin formatın obyektivliyi haqqında ictimai rəy formalaşdırmışdır. Bu məqsədlə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqil dövlətin milli ordu quruculuğunun əsaslarını yaratmış və ordumuzun peşəkar kadrlarla, yeni nəsil mütəxəssislərlə, müasir texnika ilə təchiz edilməsi istiqamətində əhəmiyyətli addımlar atmışdır. Ölkəmizin iqtisadiyyatı inkişaf etdirmək və zəruri hazırlıq işlərini aparmaq baxımından vaxt və imkan qazanması üçün atəşkəs sazişinə nail olması da ulu öndərin tarixi xidmətlərindəndir. Ali Baş Komandan kimi Heydər Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən Horadizin düşməndən azad edilməsi ilə Azərbaycan torpaqlarının müharibə yolu ilə alınmasının mümkünlüyü sınaqdan çıxarılmışdır.

Bütün bunlarla bərabər, Azərbaycan xalqının Dağlıq Qarabağda və ətraf ərazilərdə tam və qəti qələbəyə nail olması kimi tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həyata keçirmişdir. Bu məqsədlə Prezident İlham Əliyev ilk növbədə Azərbaycan Respublikasını iqtisadi cəhətdən inkişaf etdirilmiş ölkələrin səviyyəsinə çatdırmaq vəzifəsini uğurla yerinə yetirmişdir. Ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində İlham Əliyev Azərbaycan Respublikasında iqtisadi cəhətdən bütün sahələrdə şaxələnmiş böyük inkişafa nail olmağı təmin etmişdir. Davos İqtisadi Forumu və bir çox nüfuzlu beynəlxalq maliyyə qurumları müstəqil Azərbaycan Respublikasının iqtisadi göstəricilərinə görə regionda və dünyada ən yüksək reytinqə malik olan dövlətlərdən birinə çevrildiyini dönə-dönə, dəfələrlə bəyan etmişlər.

İkincisi, Prezident İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət Dağlıq Qarabağda böyük Qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar: şəxsi heyət arasında azərbaycançılıq, hərbi-vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, ordumuzun müasir hərbi texnika ilə silahlandırılması, yüksək ixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana regionda ən güclü orduya sahib olmaq imkanı qazandırmışdır. Dövlət başçımızın Fərmanı ilə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin yaradılması və bu qurumun normal iş fəaliyyətinin təşkil edilməsi də Böyük Zəfərin qazanılması yolunda atılmış əhəmiyyətli addımlardan biridir. Hələ on il bundan qabaq Azərbaycan

Respublikasının Dövlət Büdcəsində ordu quruculuğuna, hərbi xərclərə ayrılan vəsaitin Ermənistan Respublikasının ümumi büdcəsindən çox olmasının təmin edilməsi sülh və danışıqlar yolu ilə yanaşı, zərurət yarandığı təqdirdə müharibə versiyasının işə salınmasına dövlət səviyyəsində aparılan hazırlıqların mühüm göstəricilərindən biri idi. Buna görə də hələ neçə illər bundan qabaq ən nüfuzlu beynəlxalq hərbi ekspertlər Azərbaycan ordusunu bütün əsas göstəricilərinə görə dünyanın ən güclü əlli ordusundan biri hesab etmişdilər. Prezident İlham Əliyev Qarabağ - Vətən müharibəsinə mühüm hazırlıqlardan sonra, inkişaf etmiş Azərbaycan Ordusu və vətənpərvər Azərbaycan əsgəri ilə başlamışdır. İlham Əliyev bundan əvvəl 2016-cı ildə Lələtəpədə və 2018-ci ildə Naxçıvanda uğurlu döyüş əməliyyatlarına rəhbərlik edərək, torpaqlarımızın bir hissəsini düşməndən azad etməyə nail olmaqla sonralar başlayacağı Vətən müharibəsinin məşqlərini keçmişdir. Cəbhədəki uğurlu Lələtəpə və Naxçıvan əməliyyatları və Çocuq Mərcanlı qəsəbəsinin salınması vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Horadizi düşməndən xilas edərək, təmas xəttində normal həyatı bərqərar etməsinin yaradıcı şəkildə davam etdirilməsi kimi də mühüm əhəmiyyətə malik hadisə idi. Üçüncüsü, Azərbaycan Respublikasının Beynəlxalq nüfuzunun artırılması, planetimizdə etibarlı müttəfiqlərin və tərəfdarların qazanılması da Qələbəyə doğru gedən yolun əhəmiyyətli hadisəsidir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına, Avropa Birliyi Nazirlər Şurasına sədrlik etməsi, dünya ölkələri, xüsusən region dövlətləri ilə qurulmuş və inkişaf etdirmiş əlaqələrə nail olması və sair kimi mühüm addımlar ölkəmizin beynəlxalq miqyasdakı mövqelərini daha da möhkəmləndirmişdir. Beynəlxalq təşkilatlar və region dövlətləri arasında ölkəmizin qazandığı böyük etimad gələcək Böyük Zəfərin əldə edilməsinin əsas faktorlarından biri olmuşdur. Beynəlxalq münasibətlərdə illər uzunu birtərəfli qaydada seçilmiş hər hansı ölkələr qrupu ilə deyil, Şərqdə də, Qərb masştabında da demək olar ki, bütün ölkələrlə sağlam əlaqələr yaradan Azərbaycan Respublikasının qazandığı yüksək etimad Vətən müharibəsində dövlətimizin haqlı mövqeyinin düzgün qavranılmasını və dəstəklənməsini şərtləndirmişdir. Dördüncüsü, təməli böyük uzaqgörənliklə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş "Bir millət - iki dövlət" düsturu əsasında möhkəmləndirilmiş Azərbaycan-Türkiyə birliyi və əməkdaşlığı da Vətən müharibəsindəki Zəfərin ən mühüm amillərindəndir. Vaxtilə Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisində səsləndirdiyi "Tək millət - iki dövlət" kəlamı əvvəlcə hər iki ölkədə atalar sözünə çevrilmiş, tədricən daha da dərinləşərək iki qardaş ölkə arasındakı münasibətlərin strategiyası statusu qazanmışdır. Beşincisi, dünyanın istənilən ölkəsi ilə müqayisədə Azərbaycan Respublikasında yaranmış çox möhkəm xalq-iqtidar birliyi də Böyük Zəfərə təminat vermişdir. Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin ən böyük dayağı Azərbaycan xalqı olmuşdur. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, əlli milyondan çox Azərbaycan xalqı Vətən müharibəsində birmənalı şəkildə Prezident İlham Əliyevi yüz faiz dəstəkləmişdir. Bu məqamda ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Dünya Azərbaycanlılarının qurultaylarının keçirilməsi, diaspor təşkilatlarının yaradılması və fəaliyyətinə dövlət səviyyəsində dəstək verilməsi etibarlı təməl rolunu oynamışdır.

Çoxmilyonlu Azərbaycan xalqının lideri kimi İlham Əliyevin möhkəm siyasi iradəsi, sərkərdəlik məharəti, diplomatik bacarıqları, dərin analitik təfəkkürə, xarici dillərdə sərbəst nitq mədəniyyətinə malik olması faktorları istənilən məqamda, xüsusən Vətən müharibəsi kimi çətin və məsuliyyətli sınaqda xalqımıza böyük uğur qazandırmışdır. Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə və tarixi Zəfərdən sonra Azərbaycan xalqına etdiyi müraciətlərdə, dünyanın müxtəlif ölkələrinin otuzdan çox aparıcı xəbər agentliklərinə Azərbaycan, türk, rus və ingilis dillərində verdiyi müsahibələrdə ifadə olunan aydın məntiq, sərrast cavablar, xalqımıza, ordumuza sarsılmaz inam, istənilən vəziyyətdə manevr etmək qabiliyyəti müharibənin taleyində xüsusi rol oynamışdır. Ali Baş Komandan kimi İlham Əliyev həm siyasi-ideoloji cəbhədə və informasiya müharibəsində, həm də birbaşa hərbi əməliyyatlara rəhbərlik etmək sahəsində qeyri-adi dərəcədə istedad və bacarıq nümayiş etdirmişdir. Qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin Vətən müharibəsi zamanı təkbaşına apardığı siyasi-ideoloji mübarizə Vətən müharibəsində döyüşən orduda da artıq Qələbəyə xidmət etmişdir. Ali Baş Komandan şiddətli döyüşlərin getdiyi ən çətin günlərdə nüfuzlu dünya informasiya agentliklərinə verdiyi dəmir məntiqə əsaslanan dərin məzmunlu müsahibələrlə beynəlxalq ictimai rəydə müharibəni udmuşdur.

Dünya ölkələri Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezident İlham Əliyevin timsalında yüksək hazırlığa, qeyri-adi bacarıqlara və geniş dünyagörüşə malik olan fərqli bir liderlə qarşılaşmışdır. Hərtərəfli hazırlıq səviyyəsi, yüksək intellektual qabiliyyətləri, dönməz iradəsi və qətiyyəti etibarilə İlham Əliyev rəqabətdə dünya liderlərinin mütləq əksəriyyətindən qabağa getmişdir. Həqiqi bir qüdrətli Liderə malik olmaq baxımından isə hamıdan çox Azərbaycan xalqı qazanmışdır. Prezident İlham Əliyev nəinki dünya liderlərinin ön sırasına çıxmış, mənsub olduğu xalqı və rəhbərlik etdiyi ölkəni də böyük xalqların və dövlətlərin cərgəsinə yüksəltməyi bacarmışdır.

Prezident İlham Əliyev Vətən müharibəsində qazandığı böyük Zəfərlə çoxəsrlik Azərbaycan tarixinə müasir dövrün Qalib Ali Baş Komandanı və Müzəffər Dövlət Rəhbəri kimi daxil olmuşdur. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Zəfər Azərbaycan xalqına təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının düşməndən azad edilməsinə, ərazi bütövlüyünün təmin olunmasına nail olmaq şansı qazandırmışdır. İlham Əliyevin əldə etdiyi Zəfərlə Ermənistan tərəfinin uydurduğu böyük Ermənistan mifi darmadağın edilmişdir. Erməni diasporu və lobbisi haqqında mövcud olan ictimai rəyin də süni şişirtmədən başqa heç nə olmadığı isbat olunmuşdur. Vətən müharibəsində qazanılmış hərbi-siyasi Zəfərdən sonra vaxtilə İosif Stalin, Serqo Orconikidze və Anastas Mikoyan kimi radikal millətçi bolşeviklərin məkrli diqtəsi ilə Azərbaycanın tərkibində uydurma şəkildə ermənilərin xeyrinə yaradılmış muxtariyyət statusu da artıq tarixin arxivinə getmişdir. Bundan başqa, İlham Əliyevin Vətən müharibəsindəki tarixi Zəfəri Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyanı mat vəziyyətinə salmış, onun başçılıq etdiyi başabəla ölkəni sonu görünməyən müddətdə dərin iflasa uğratmışdır. Ermənistan Respublikasının mövcud hərbi-siyasi böhrandan xilas olması üçün bu ölkəyə on illiklərlə vaxt tələb olunur. Ermənistan hazırda dünyadan təcrid olunmuş, siyasi-iqtisadi və mənəvi böhranın məngənəsində çabalayan, məhv olmağa doğru gedən bir ölkəyə çevrilmişdir. Ermənistanın hazırkı hərbi-siyasi mənzərəsində onu bu dərin böhrandan xilas edəcək hər hansı bir "xilaskar" görünmür. Süni şəkildə ərazi iddiaları xülyasına uymuş, koronavirusdan da betər ifrat millətçilik xəstəliyinə yoluxmuş erməni başbilənlərindən birinin digərini əvəz etməsi ilə Ermənistanda vəziyyətin əsaslı şəkildə dəyişdiriləcəyinə inanmaq mümkün deyildir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qazandığı Zəfərlə müstəqil Azərbaycan dövləti:

* Özünün itirilmiş qədim torpaqlarını işğalçılardan təmizləmişdir.
* Ərazi bütövlüyünü təmin etmişdir.
* Qəhrəman Ordumuz hərbi bacarıqlarını və imkanlarını dünyaya göstərmişdir.
* Ölkədə möhtəşəm Birliyə nail olmuşdur.
* BMT-nin Dağlıq Qarabağla əlaqədar qətnamələrinin həyata ke-

çirilməsini təmin etmişdir.

* Dünyanı yalançı erməni uydurmalarından və erməni faşizmindən xilas etmişdir.

* Ermənistan Respublikasına, daha çox isə erməni xalqına xəyalpərəst yuxudan ayılmaq, region ölkələri ilə qarşılıqlı etimad əsasında özünün yeni həyatını qurmaq üçün şans yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyanla imzaladıqları 10 noyabr 2020-ci il tarixli razılaşma sənədi regionda qarşıdurmalara və müharibəyə son qoyan, nahaq qanların axıdılmasını dayandıran, Azərbaycan xalqına qarşı edilmiş böyük ədalətsizlikləri aradan qaldıran, bölgədə sülh və əməkdaşlığa yol açan əhəmiyyətli bir deklorasiyadır. Razılaşma sənədindəki müddəalara əsasən müharibənin dayandırılması, qəhrəman Azərbaycan əsgərinin əzmi ilə azad edilmiş ərazilərdən başqa, işğal olunmuş Ağdam, Kəlbəcər və Laçın rayonlarının silah-sursat işlədilmədən, şəhid verilmədən geri qaytarılması mühüm diplomatik qələbə və böyük tarixi hadisədir. Eyni zamanda, razılaşma sənədinin müddəalarına əsasən Naxçıvan Muxtar Respublikasına gedən nəqliyyat dəhlizinin açılması ölkəmizin qardaş Türkiyə Cümhuriyyəti ilə, oradan da Avropa və əksinə Asiya ölkələri ilə əlaqələrinin daha da genişləndirilməsinə, Pekindən - Londona qədər uzanan tarixi İpək yolunun yenidən bərpa edilməsinə geniş imkanlar açılmışdır. Bu, Naxçıvan Muxtar Respublikasının illərdən bəri davam etməkdə olan çətin blokada şəraitindən xilas edilməsinə və Azərbaycanın ayrılmaz bir parçası olan bu diyarın ölkəmizin digər rayonları ilə əlaqələrinin yenidən formalaşmasına xidmət edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 noyabr 2020-ci ildə Şuşanın alınması günündə və əslində Vətən müharibəsində qələbəmizin təmin edildiyi vaxtda Fəxri xiyabana gedərək, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin məzarını və abidəsini dərin ehtiramla ziyarət etməsi qırx dörd günlük müharibə dövrünün ən təsirli və unudulmaz tarixi hadisələrindən biridir. Bu ibrətamiz hadisə ilə Prezident İlham Əliyev 30 il davam etmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və vəsiyyət etdiyi tarixi bir missiyanın uğurla başa çatdırılmasının şərəfli bir hesabatını vermişdir. Dövlətçilik baxımından son dərəcə əhəmiyyətli olan bu mühüm hadisə siyasi varislik cəhətdən də mühüm əhəmiyyətə malikdir. Fəxri xiyabandakı ziyarət aktı müstəqil Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının hansı miqyasda və necə həyata keçirməyin bariz nümunəsidir. Müasir Azərbaycan tarixinin nadir səhifəsi olan bu ziyarət anı yeni nəsillərin ideya-siyasi və mənəvi tərbiyəsi üçün də xüsusi öyrənilməyə layiq ibrətamiz hadisə kimi də böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş 8 noyabr Zəfər Günü çoxəsrlik Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış parlaq hadisədir. Bu, Ali Baş Komandan İlham Əliyevin, xalqımızın və rəşadətli Ordumuzun qazandığı böyük tarixi Zəfərdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qalib ölkə kimi birlikdə keçirdiyi Zəfər Paradı qəhrəmanlıq salnaməmizin nadir tarixi hadisəsidir. Bu, "Bir millət - iki dövlət" strategiyasının real təntənəsidir. Böyük Zəfər Günü - gələcək daha böyük zəfərlərin bələdçisi və təminatçısıdır. Ali Baş Komandan İlham Əliyevin və qəhrəman Azərbaycan ordusunun qazandığı Böyük Zəfər Günü ölkəmizə regiona və dünyaya daha böyük zəfərlər vəd edir. Zəfər Günün və zəfərlərin mübarək olsun, Azərbaycan!

## Dünyanın hər yerində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbirləri keçirilib

*"Arabnews" qəzetində ulu öndər Heydər Əliyevə həsr edilmiş məqalə dərc olunub*




Səudiyyə Ərəbistanının nüfuzlu "Arabnews" qəzetində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü" sərlövhəli geniş məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Heydər Əliyevin bənzərsiz şəxsiyyət olduğu, onun nurlu ideyalarının xalq arasında böyük rəğbət qazandığı və Azərbaycanın işıqlı gələcəyini təmin etdiyi vurğulanır. Qeyd olunur ki, 17 il əvvəl əbədiyyətə qovuşan bu dahi şəxsiyyət öz həyatını Azərbaycanın tərəqqisinə həsr edib və tarixə milli lider kimi adını yazdırıb. Məhz onun liderliyi, xalqın böyük etimadını qazanması sayəsində ölkə ağır böhrandan xilas olaraq inkişaf yoluna qədəm qoyub.

Məqalədə müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin zəngin siyasi təcrübəsi, geniş fəaliyyəti, Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi o vaxtın ən qüdrətli dövlətlərindən biri olan Sovet İttifaqının rəhbərlərindən olması, həmin vaxtlarda belə doğma Azərbaycanın gələcək müstəqilliyini düşünərək müdrik addımlar atması, Azərbaycana yenidən başçılıq etdiyi dövrdə xalqının xilaskarı olmasından geniş bəhs edilir.

Müəllif qeyd edir ki, dünyaşöhrətli siyasətçi beynəlxalq təşkilatlar, xüsusən İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əməkdaşlığa böyük əhəmiyyət verir, ərəb ölkələri ilə əlaqələrin gücləndirilməsini diqqət mərkəzində saxlayırdı. Onun 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri münasibətlərin möhkəmlənməsində mühüm mərhələ oldu və Ər-Riyadla Bakı arasında iqtisadi, ticari, mədəni və texnologiya sahələrində əməkdaşlığa dair sənədlər imzalandı. Məqalədə Heydər Əliyevin neft strategiyası, həyata keçirilən transmilli enerji və kommunikasiya layihələri haqqında ətraflı məlumat verilir. Əlavə olunur ki, hazırda Prezident İlham Əliyevin səyləri ilə istifadəyə verilən TANAP layihəsi də bu strategiyanın tərkib hissəsidir.

## Ulu öndər Heydər Əliyevin xatirəsi Daşkənddə də anılıb

**Azərbaycanın Özbəkistandakı səfirliyi və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir təşkil edib. AZƏRTAC xəbər verir ki, tədbirdə səfirliyin əməkdaşları, Özbəkistanın elm, ədəbiyyat və incəsənət xadimləri, Azərbaycan diasporunun üzvləri iştirak ediblər. Əvvəlcə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev və mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin Mədəniyyət Mərkəzinin qarşısındakı abidəsi önünə gül dəstələri qoyublar.**



Tədbir iştirakçıları mərkəzin foyesində Ulu Öndərin həyat və fəaliyyətinə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlara həsr edilmiş foto və kitab sərgisinə baxıblar.

Hüseyn Quliyev mərasimdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında söhbət açıb. O, Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi dövrdən başlamış Moskvadakı fəaliyyəti və ən nəhayət, xalqın təkidli tələbi ilə Bakıya qayıdaraq müstəqil Azərbaycanın Prezidenti seçilməsi, ölkəmizi sözün əsl mənasında, xilas etməsi haqqında söhbət açıb. H.Quliyev deyib ki, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyev ölkəmizi dünyaya tanıtdı, qısa müddətdə siyasi və iqtisadi islahatlara başladı və uğurlu nəticələr əldə edildi.

Səfir Ermənistanın son təxribatları, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi, elə ilk gündən cəbhədə üstünlük əldə olunması və bunun da nəticəsində Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı şəhərlərinin və kəndlərin, bir sıra yüksəkliklərin işğaldan azad olunması haqqında məlumat verib. Səfir vurğulayıb ki, qədim Şuşa şəhərinin işğaldan azad edilməsi isə Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı.

## Madriddə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib





***Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfirliyinin təşkilatçılığı ilə Madrid şəhərində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə İspaniya ictimaiyyətinin nümayəndələri, yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri və bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.***

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri Anar Məhərrəmov müasir Azərbaycanın əldə etdiyi tərəqqi və inkişafın həyatının böyük hissəsini öz xalqına həsr etmiş Heydər Əliyevin adı ilə bilavasitə bağlı olduğunu qeyd edib.

Səfir diqqətə çatdırıb ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra çətin vəziyyətlə üzləşmiş, 1991-1993-cü illərdə hakimiyyətdə hökm sürən böhran ölkəni vətəndaş müharibəsi vəziyyətinə aparmış, yaranmış vəziyyətdən sui-istifadə edən Ermənistan Azərbaycanı parçalamaq, onun müstəqilliyinə təhdid yaratmağa cəhd etmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və xalqımıza qarşı etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon işğal edilmiş, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Xüsusi olaraq vurğulanıb ki, 1993-cü il iyun ayının 15-də Azərbaycan xalqının təkidi ilə Heydər Əliyev yenidən hakimiyyətə qayıtmış, məhz Ulu Öndərin müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti sayəsində gənc, müstəqil respublika qaçılmaz fəlakətdən qurtulmuş, ölkənin daxili və xarici siyasətində sabitlik bərqərar olunmuş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə atəşkəs əldə edilmiş, ölkə yeni inkişaf dövrünə qədəm qoymuşdur. Azərbaycan xalqı Heydər Əliyev tərəfindən görülmüş işləri layiqincə qiymətləndirərək, onu xalqın Ümummilli Lideri kimi əbədiləşdirmişdir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun bu gün Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyi və onun yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın regionda lider ölkəyə çevrildiyi bildirilib.

Türkiyənin İspaniyadakı səfirliyinin müşaviri Yunus Əmre Bayrak tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanda bütün sahələrdə hərtərəfli inkişafa nail olunduğunu bildirib. Y.Ə. Bayrak Heydər Əliyevin yalnız Azərbaycanın deyil, bütün türk dünyasının lideri olduğunu diqqətə çatdıraraq, Ümummilli Liderin Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və qardaşlıq əlaqələrinin qurulmasında müstəsna rolundan bəhs edib.

# Cənnəti sağlığında qazanan insan...



Yaxşı yadımdadır, neçə illər bundan əvvəl dəyərli sənətkarımız, mərhum Qədir Rüstəmovla bağlı yazı yazmışdım. Bəzi insanların sənətkara sağlığında diqqət və qayğı göstərməməsini, Mədəniyyət Nazirliyinin o zamankı rəhbərliyinin mərhum sənətkarın sağlamlığı üçün lazımı tədbirləri görməməsini, əvəzində şou-biznesdəki qulağı sırğalı "kişiciklərin" bal-yağ içərisində bəslənməsini "topa tutan" yazım dərc olunmuşdu. Ertəsi gün mən işə gələndə, redaksiyadakı jurnalist həmkarlarım bir nəfər ağsaqqalın məni bir neçə dəfə aradığını xəbər verdilər. Sözlərindən arayan adamın nüfuzlu, samballı ağsaqqal olduğunu təyin etmək çətin deyildi. Növbəti zəngdə artıq mən redaksiyada idim. Dəstəyin o başında nurani insanın ağsaqqal tonda olan müdrik səsi elə indidə qulaqlarımdadır: "Bacıoğlu, mən Şirvan Əbilov, Masallı rayonundan narahat edirəm. Mərhum Qədir Rüstəmovla bağlı yazdığın yazını oxudum. Ürəyimə yatdı yazdıqların. Belə böyük sənətkarlara diqqət bütün cəmiyyətin mənəvi borcudur. Böyük sənətkarlara sahib çıxmasaq, sonra sabah gec olacaq. İtirən gələcək nəsillər olacaq"- dedi.

Bəli, beləcə əziz Şirvan dayımla, böyük ürəkli insanla ünsiyyətim, aramızdakı yaş fərqimiz böyük olsa da, əsl dostluqumuz yarandı. Hər keçən gün bu gözəl insanın mərhəmətli, xeyirxah, insanlara ürəkdən yanan daxili gözəlliyini daha geniş duymağa başladım. Bir var kiminsə haqqında protokol və nəzakət xatirinə boğazdan yuxarı, qeyri-səmimi qəlib cümlələr yazıb işini bitmiş sayasan, bir də var Şirvan dayı kimi hər kəsin sevgisini və hörmətini qazanan el AĞSAQQALI barədə ürək sözlərini yazasan. Bunlar tam fərqli-fərqli, hərəsi başqa dünyaya məxsus, mənası heç bir zaman ortaq məxrəcə sığmayan hisslərdir.

Bir neçə dəfə haqqında yazmışam. Yadımdadır, yubileylərinin birində yazmışdım haqqında. Amma indi rəhmətlik Şirvan dayı deyirəm. Artıq aramızda yoxdur mənim böyük bir zirvədən uca Şirvan dayım...

Bu yazı mənim qəlbimdə böyük yeri olan dəyərli insana son vida borcumdur. Mən Şirvan dayının övladı deyiləm, bu doğrudur, amma bu nurani, daxilində əsl insan sevgisi olan, daima hər bir gəncə ata kimi, əsl el Ağsaqqalı kimi doğru yol göstərən, dərdi olana sirdaş olan, yetimə hər zaman sahib olan bu böyük insanı bir övlad olaraq çox sevirdim. Bu sevgini və hörməti özü qazanmışdı. Şirvan dayımdan nələr öyrənmədim ki?. Düzlüyü, insanlara dəyər verməyi, xeyirxah olmağı öyrəndim gülərüzlü Şirvan dayımdan. Demək olar ki, hər axşam zəngləşər, ölkəmizin həm mədəniyyət, həm siyasət, həm sosial həyatındakı proseslər barədə dərin və səlist fikirlərini söyləyər, mənəvi dəyərlərimizə qarşı efirlərdə baş alıb gedən özbaşınalıq barədə dərd yana-yana danışardı. Aramızda böyük yaş fərqi də olsa, sözün əsl mənasında möhkəm dostluğumuz yaranmışdı. Bu cümlələri yazanda həm də göz yaşlarımı saxlaya bilmirəm inanın. Çünki onun haqqında keçmişdə danışmaq mənim üçün çox, amma çox ağırdır...

Bütün həyatı zəngin bir məktəb olan canlı tarix idi. Bunlar sadəcə tərif üçün deyilən sözlər deyil, gerçək həqiqətdir. Şirvan dayı ölkəmizin ictimai-siyasi həyatında da ən kritik məqamlarda, bir çoxlarının qorxusundan başını evinin kəndarından çölə çıxarmağa cəsarət etmədiyi vaxtlarda qorxmadan, çəkinmədən öz mövqeyini ortaya qoyan prinsipial insan idi. Ulu Öndər Heydər Əliyevə daima böyük sevgi və rəğbət bəsləyən Ş.Əbilov, həm Moskvaya, həm də Naxçıvana Ulu Öndərlə görüşməyə gedir, Azərbaycanın ən taleyüklü və çətin vaxtlarında el ağsaqqalı, ziyalı olaraq vətəndaş mövqeyini qorxmadan nümayiş etdirirdi. 1992-ci ilin soyuq noyabrında YAP-ın təsis qurultayı üçün Naxçıvana gedən Şirvan dayı, o zaman yerli cəbhəçilərin təzyiqi ilə üzləşir, ona təzyiq göstərib həbs edirlər. Şirvan dayının o zaman dediklərindən: "Mən YAP-ın qurultayında iştirak etmək üçün çətin də olsa Naxçıvana getdim. Xalq Cəbhəsinin üzvləri məqsədimi bilib təzyiq etdilər. Haval limanında həbs olundum. Yalnız Eldar İbrahimovun gəlib danışıq aparmasından sonra məni sərbəst buraxdılar. Sabahısı gün qurultay başladı. Qurultay soyuq, istilik sistemi olmayan bir zalda keçirilirdi. Hamı Ulu öndərin çıxışına elə diqqət kəsilmişdi ki, zalın soyuğunu hiss etmirdik. Cənubdan olan nümayəndə kimi Ulu Öndər mənə çıxış üçün söz verdi. Bacıoğlu, inan elə alovlu çıxış etdim ki, həm Ulu Öndər, həm də zaldakılar alqışladılar məni. O gün həyatımın ən yaddaqalan günlərindən biridir".

Şirvan dayımın mükəmməl, fenomenal yaddaşı vardı. Xüsusilə Azərbaycan ədəbiyyatından seçmələri, böyük mütəfəkkirlərin ibratamiz, yaddaqalan kəlamlarını əzbərdən deyərdi. Hər sözündə bir məna, hər kəlməsində bir ibrət vardı. Ən çox sevdiyim, həm də elə Şirvan dayının öz ağsaqqalığını, müdrikliyini təsdiqləyən gözəl bir deyimi vardı: "Ağsaqqal deməyin hər ağ saqqala, ağ saqqal başqadır, AĞSAQQAL başqa!".

Bəli, ömrün zirvəsinə ucalan Şirvan dayım, sözün əsl mənasında AĞSAQQAL idi, sözü, duruşu dağ zirvəsi qədər ağır, uca olan el ağsaqqalı..

Onunla sonuncu görüşüm yaddaşıma elə həkk olunub ki, ömrümün sonuna qədər unutmaram o günü. Xəstəxanada yatırdı son günlərdə. Xəstəxananın yerini tapa bilmirdim, oğlu Ərəstun müəllimlə əlaqə saxlayıb çətin də olsa ziyarətinə getdim. İçəri girəndə əzəmətli Şirvan dayımı xəstə yatağında görəndə duruxdum bir anlığa. Onu heç vaxt çarpayıda təsəvvür etmirdim. Az da olsa söhbətləşdim onunla. Amma içimdən bir səs, sanki Şirvan dayı ilə sonuncu dəfə görüşdüyümü, mənim üçün gerçəkdən dəyərli olan, bu həyatda gördüyüm ən yaxşı insanlardan birini tezliklə əbədi olaraq itirəcəyimi pıçıdıyırdı mənə...

Şirvan Əbilov gerçəkdən elə bir insan idi ki, onun haqqında fikir yazmaq və bitirmək bir qəzet yazısının işi deyil. Azərbaycan milli mentaliteti üçün əsl ağsaqqal simvolu olan bu nurani insan, tez-tez "SƏS" qəzetinə gələr, baş redaktor Bəhruz müəllimlə, qəzet əməkdaşları ilə görüşər, hal əhval tutardı. Şirvan dayı deyirdi ki, hələ 1992-ci illərdə "SƏS" qəzetinin dərc olunan nüsxələrini alıb Cənub bölgəsinə aparar, Ulu Öndər Heydər Əliyev ideyalarının yerlərdə təbliğ olunmasına çalışardı. Hamının sevimlisi idi Şirvan müəllim. Yaddaşımızda nurani, müdrik bir insan kimi qaldın Şirvan dayım. Bu yazım, həm də Bəhruz Quliyev başda olmaqla "SƏS" qəzetinin kollektivinin sənin ruhuna olan sayğısıdır. Rahat uyu əziz dayım, Bu sənə bir vəfa borcumdur. Cənnətini sağlığında qazanan insan, əlvida...

***Mətləb Salahov***

# Binəqədi rayonunda Ümummilli Lider Heydər Əliyevin anım tədbiri keçirilib





11 dekabr 2020-ci il tarixdə Binəqədi rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və Binəqədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə əlaqədar "Müstəqil vətənin memarı" adlı videokonfrans formatında anım tədbiri keçirildi. Tədbir dahi şəxsiyyətin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Daha sonra İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru İftixar Piriyevin hazırladığı ulu öndər Heydər Əliyevin ömür yolundan, dövlət xadimi kimi zəngin fəaliyyətindən bəhs edən və əziz xatirəsinə ehtiram əlaməti olaraq "Müstəqil vətənin memarı" filmi nümayiş etdirildi.

Tədbirdə giriş nitqi ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirdi ki, XX əsr tarixində fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik, tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elmini öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu 1969-cu ildən - məhz Onun birinci dəfə hakimiyyətə gəlişindən sonra başlayıb. XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. 1993-cü ildə onun yenidən hakimiyyətə qayıdışı nəticəsində Azərbaycan sabitlik məkanına çevrildi. Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlıdır. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi. Ulu öndərin vəfatından ötən 17 ildə Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin bu günümüz üçün möhkəm təməl yaratdığını əsaslı şəkildə diqqətə çatdırır. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal altında qalan torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Daha sonra məruyzə ilə çıxış edən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə ulu öndər Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolunun zaman və məkan anlayışına sığmadığını bildirdi. Natiq ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşliyin hələ gənc yaşlarından özünü göstərdiyini qeyd etdi.

Məhz ümummilli lider Heydər Əliyevin səyi nəticəsində 1994-cü ildə "Əsrin Müqaviləsi" imzalandığını, Yeni müqavilələr və kontraktların ölkəmizin iqtisadiyyatının güclənməsinə səbəb olduğunu bildirdi. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər. Məhz o islahatların parlaq nəticəsidir ki, bu gün Azərbaycan işğalçı Ermənistan üzərində qətiyyətli qələbə qazandı. İşğal altında olan tarixi torpaqlarımız işğaldan azad edildi. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ulu öndər siyasi kursunun layiqli davamçısı kimi tariximizdə əvəzsiz zəfərə imza atdı.

Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin zaman-zaman yaşaması üçün öz qayğısını əsirgəməmişdir. Heydər Əliyevin xatirəsi Azərbaycan adı yaşadıqca, daim xalqımızın yaddaşında, ürəklərdə yaşayacaq. İllər ötdükcə biz Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü və ucalığını daha dərindən dərk edirik. Xalqın öz dahi oğluna məhəbbət və ehtiramı bitib-tükənmir, əksinə, getdikcə artır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham bunun əyani göstəricisidir. Dahi şəxsiyyət Heydər Əliyevin zəngin irsindən söhbət açan digər çıxışçılar vurğuladılar ki, müdrik dövlət xadiminin istər sovet, istərsə də müstəqillik illərində xalqına, onun gələcəyinə həsr etdiyi ömür, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması istiqamətində atdığı qətiyyətli addımlar bu gün öz bəhrəsini verməkdədir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında Heydər Əliyevin müstəsna xidmətləri danılmazdır. Tədbirdə Azərbaycan Milli Aerokosmik Agentliyin baş direktorun müəavini, Ərazi ilk partiya təşkilatının sədri professor-Tofiq Süleymanov çıxış edərək Azərbaycanda hərbi sənaye kompleksinin və aerokosmik sənayenin yaradılmasının Ulu Öndərin adı ilə bağlı olduğunu bildrərək bu sahədə Ümumilli liderimiz Heydər Əliyevin xidmətlərindən söhbət açdı.

***Nəzakət Bayramova***

# İtaliya Azərbaycanın əsl dostudur

***Dünya ölkələri sırasında İtaliya ölkəmiz üçün mühüm tərəfdaşlardan birinə çevrilib. Azərbaycanla İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda nümunələr var. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəltmişdir. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb.***



Bu gün ölkəmizdə İtaliya şirkətləri uğurla fəaliyyət göstərir. İki ölkənin gəncləri arasında da çox gözəl münasibətlər formalaşıb, universitetlər və digər mədəniyyət mərkəzlərinin əlaqələri getdikcə dərinləşir. Bu Azərbaycan - İtaliya arasında əməkdaşlıq, tərəfdaşlıq əlaqələrinini göstəricisidir. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bu səfərin təsadüfi olmadığını bildirib: “Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir”.

Cənab Prezident ölkələr arasındakı siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu bildirərək bu ilin əvvəlində İtaliyaya dövlət səfərinini bunun bariz nümunəsi olduğunu qeyd edib: “Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi”.

Əlbəttə ki, siyasi münasibətlər və strateji tərəfdaşlıq, iqtisadi-ticarət sahəsində əməkdaşlıqda mühüm rola malikdir. İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 6 milyard ABŞ dolları təşkil edib. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür.

İtaliya həm də TAP layihəsinin iştirakçısıdır. Dövlət başçısı yaxın gələcəkdə TAP layihəsinin istismara veriləcəyini və bunun İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcəyini vurğulayıb.

## “ONLAR HESAB EDİRDİLƏR Kİ, AZƏRBAYCANLILAR BU TORPAQLARA HEÇ VAXT QAYITMAYACAQLAR”

Qonaqlar ölkəmizə səfərləri çərçivəsində Azərbaycanın Gəncə və Ağdam şəhərlərinə səfər edib, onlar Ermənistan tərəfindən törədilən hərbi cinayətlərlə yaxından tanış olublar. “Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub”, deyən Cənab Prezident Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulduğunu və müharibə zamanı 94 mülki şəxsin həlak olduğunu və 400-dən çox yaralandığını qeyd edib: “Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər”.

## “AĞDAMDA GÖRDÜYÜNÜZ MƏNZƏRƏ AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARDA MÜŞAHİDƏ OLUNUR”

44 gün ərzində Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Artıq Azərbaycanın qarşısında yeni yollar açılır, yeni, qaynar bir dövr başlayır. Bildiyimiz kimi, işğaldan azad olunan bölgələrdə infrastruktur layihələrə start verilib, yollar salınır. Erməni vandallarının xarabazarlığa çevirdiyi, darmadağın etdiyi yerləri yenidən qurmaq, bərpa etmək lazımdır: “Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur”, deyən Prezident Füzuli şəhərində də bir dənə salamat bina qalmadığını diqqətə çəkib: “Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır”.

## “ƏSL DOSTLUQ İSƏ ÖZÜNÜ ÇƏTİN ANLARDA BÜRUZƏ VERİR”

Erməni vəhşiliyi, vandallığı bu gün işğaldan azadolunana bölgələrə səfər edən hər kəsi təəccübləndirir. “Qafqazın Xirosiması” adlanan Ağdamada yeganə salamat bina şəhər məscididir. Bu müqəddəs məkanda da ermənilər ondan donuz tövləsi kimi istifadə ediblər. Bütün bunlara baxmayaraq Azərbaycanın bütün bölgələri abadlaşacaqdır. Cənab Prezidentin vurğuladığı kimi, indi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq: “Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yeni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün

də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur”.

***Nəzakət Ələddinqızı***

# İtaliya nümayəndə heyətlərinin Azərbaycana səfərləri bu ölkənin mətbuatının diqqət mərkəzində olub







Dekabrın 5-7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun rəhbərliyi ilə İtaliyanın aparıcı siyasi qüvvələrinin təmsilçiləri olan deputat və senatorlardan ibarət nümayəndə heyətinin və dekabrın 8-9-da İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio Di Stefanonun Azərbaycana səfərləri İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələrinin geniş diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, İtaliyanın İl Giornale, Askanews, Yahoo Notizie, Agenzia Nova, Kmetro0, Polticamente Corretto, Giornale Diplomatico, Comunicazione Inform və sair kimi mətbuat vasitələrində mövzu ilə bağlı dərc olunmuş çoxsaylı yazılarda hər iki nümayəndə heyətinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyi bildirilir və həmin görüşlərdə Azərbaycan dövlətinin başçısının söylədiyi fikirlərə istinad olunur.

Yazılarda, eləcə də nümayəndə heyətlərinin Azərbaycanda səfərdə olarkən keçirdiyi görüşlər və apardığı müzakirələr barədə də məlumatlar verilir.

Məlumatlarda, habelə parlamentarların Gəncə şəhərinə səfər edərək Ermənistanın raket hücumları nəticəsində dağılmış yaşayış məntəqələri ilə tanış olduqları qeyd edilir. Həmçinin hər iki nümayəndə heyətlərinin Ermənistanın hərbi işğalından azad olunmuş Ağdam şəhərinə də etdikləri səfərlərə və orada şahidi olduqları dəhşətli mənzərə ilə bağlı fikirlərinə də yer verilir.

İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio Di Stefano və Deputatlar Platasının vitse-spikeri Ettore Rosato Azərbaycana səfərlərinin yekunları barədə Agenzia Nova və Sputnik İtalia kimi mətbuat orqanlarına müsahibələr verərək, ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin mövcudluğundan, Ağdam şəhərinə səfərlərində müşahidə etdikləri acınacaqlı mənzərədən danışıb, işğaldan azad olunmuş ərazilərə yenidən həyatın qaytarılması üçün bərpa və inkişaf layihələrində iştirakda İtaliyanın böyük marağının olduğunu bildiriblər.

Dövlət katibi Manlio Di Stefanonun Azərbaycana səfəri ilə bağlı İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin yaydığı mətbuat açıqlaması da İtaliyanın bir sıra kütləvi informasiya vasitələri tərəfindən də dərc olunub.

Bundan əlavə, parlamentarların və dövlət katibinin Azərbaycana səfərlə bağlı öz sosial şəbəkə profillərində etdiyi çoxsaylı paylaşımlar sosial şəbəkələrdə geniş marağa və müzakirələrə də səbəb olub.

# Müdriklik zirvəsi - AZƏRBAYCAN XALQININ ƏBƏDİLƏŞMİŞ LİDERİ

*Dekabrın 12-si xalqımızın Ümummilli Lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış Ulu Öndər Heydər Əliyevin anım günüdür. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 17 il ötsə də, O, bu gün də, gələcəkdə də Azərbaycan xalqının qəlbində yaşayacaq, yaşadılacaq. Çünki öz müqəddəs əməli sayəsində Vətəni, xalqı uğrunda yorulmadan çalışmış Dahi Şəxsiyyət, Fenomen İnsan Heydər Əliyev ömrünü dövlətçiliyin inkişafı, Azərbaycanın tərəqqisi üçün şam kimi əritdi. Onun bir amalı var idi - qurduğu mütərəqqi dövləti beynəlxalq aləmdə tanıtmaq, lider ölkələrdən birinə çevirmək. Və bu amal gerçəkliyə çevrilib. Çünki Ümummilli Lider Heydər Əliyev yolu bu gün Onun ən layiqli davamçısı, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir, yaşadılır. Çünki Heydər Əliyev ideyası əbədi və dönməzdir.*



*ZƏRİFƏ QULİYEVA,*
*YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, “Modern ailə və inkişaf” İctimai Birliyinin sədri*

### Müdrikliyin dühası

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə çox böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Ümummilli Lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən sosial-iqtisadi böhran keçirən Azərbaycanı keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə qaldırmışdır. Ümummilli Liderin Azərbaycanda siyasi hakimiyyətə gəlişini tarixi hadisə kimi qiymətləndirənlər öz qənaətlərində haqlıdırlar. Çünki rəhbər vəzifədə olduğu müddətdə respublikada köklü dəyişikliklər baş vermişdir. SSRİ dövründə hər bir tapşırığın Mərkəzdən verildiyi və idarə olunduğu bir vaxtda geridə qalan, çıxılmaz sosial-iqtisadi vəziyyətdə olan Azərbaycanda insanlar dirçəlişin olacağına şübhə ilə yanaşırdılar. Məhz Ulu Öndərin hakimiyyətə gəlişi xalqda böyük ruh yüksəkliyi yaratdı. Hakimiyyətdə olduğu illərdə respublikada yüzlərlə yeni müəssisə, istehsalat sahələri yaradılmış, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa edilmişdir. Heydər Əliyev ölkə rəhbərliyində yüksək vəzifədə çalışarkən öz iti zəkası, yüksək erudisiyası, siyasi uzaqgörənliyi, yorulmaz fəaliyyəti ilə daim diqqət mərkəzində idi.

### Xilaskar missiyalı qayıdış

Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı. Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, Heydər Əliyev qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Dahi Şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, Ümummilli Liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri bir ömrün qızıl salnaməsidir. Ulu Öndər həmin dövrdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycanı bəxş etdi.

Sevindirici haldır ki, Ulu Öndərimizin ölməz ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ötən müddət ərzində dövlətimizin başçısının yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Zaman Heydər Əliyev siyasətinin alternativsizliyini və xalqın İlham Əliyevi dəstəkləməklə ən doğru addım atdığını göstərir. Bütün beynəlxalq təşkilatlar birmənalı şəkildə etiraf edirlər ki, Azərbaycanın inkişafı sürətlənib, ümumi daxili məhsul istehsalının artım tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilib.

### Prezident İlham Əliyev və siyasi varisliyin təntənəsi

Bəli, xalqın irəlidə - Ulu Öndərdən sonra taleyini etibar etmək istədiyi lider yalnız İlham Əliyev idi. Prezident İlham Əliyev müxtəlif dövlətlərin siyasilərinin çeşidli mülahizələrilə müşayiət olunan proseslərdə, tez-tez dəyişən olayların çevrəsində dünya şöhrətli atasının bütün fərdi və ideoloji qənaətlərini onunla birgə yaşayırdı. Ümummilli liderin ən layiqli varisi İlham Əliyev ona görə güclü idi ki, müstəqil Azərbaycan dövlətinə rəhbərlik estafetini qəbul edərək böyük siyasətə gəlişi Ümummilli Lider Heydər Əliyevin siyasi, ictimai, əxlaqi məfkurəsi və mədəniyyəti üzərində formalaşmışdı. Belə bir tarixi şəraitdə Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirdi: “Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Bəli, 17 il prezidentlik fəaliyyəti müddətində Prezident İlham Əliyev ölkə daxilində və xarici aləmdə məhz həmin siyasətin daşıyıcısı və davamçısı kimi qəbul edilir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.

Ən əsası isə sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi.

Prezident İlham Əliyev 17 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi. “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hisləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. “Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir”,-deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.

Bütün bu kimi əhəmiyyətli amillər isə həm də o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət dövlət başçımız tərəfindən qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev atasından əxz etdiyi nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyinə tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə başlatdığı işlər sahəsində gördüyü nəhəng layihələri respublikamızın Prezidenti cənab İlham Əliyev layiqincə davam etdirir. Məqsəd isə birdir - Azərbaycan xalqının daha xoşbəxt və firavan yaşamasını təmin edilməsi, ölkəmzin adının ən yüksək zirvələrdə çəkilməsi. Bizlər də hər bir vətəndaş kimi inanırıq ki, Azərbaycanı, onun xalqını uğurlu daha gələcək gözləyir. Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində əbədiyyən yaşayacaq, yaşadılacaqdır!

# Qabil Hüseynli: "Ermənistanda vətəndaş müharibəsi qaçılmazdır"



Müsahibimiz politoloq Qabil Hüseynlidir

**- Qabil müəllim, Ermənistan parlamentinin komitə sədri A.Koçaryan bəyan edib ki, kapitulyasiyanı qəbul edib, Azərbaycanla diplomatik əlaqələr qurub gələcəyi düşünmək lazımdır. Sizcə, Ermənistan cəmiyyəti təslimçiliyi qəbul edib, gələcəyi düşünməyə hazırdırmı?**

- Ermənistan cəmiyyətində sağlam düşüncəli insanlar qabağa çıxmağa başlayıb və onlar reallıqları olduğu kimi qəbul edirlər. Paşinyan da öz xarici siyasətinin, Azərbaycanla münasibətləri bərpa edib, normal qonşuluq münasibətlərini yaratmaqdan ibarət olduğunu söyləyib. Düşünürəm ki, Ermənistan parlamentinin komitə sədrinin parlamentdə "kapitulyasiyanı qəbul edib, Azərbaycanla diplomatik əlaqələr qurub, gələcəyi düşünmək lazımdır", deməsi çox doğru addımdır. Özündən çıxıb, atlanıb düşən və məğlubiyyətdən danışan ermənilər hansı gələcəyi düşünə bilər? Biz öz torpağımızı azad etmişik. Vaxtı ilə siz ermənilər Rusiyanın köməyi ilə torpaqlarımızı işğal edib, qətliamlar, soyqırımı aktları törətdiniz. İndi 30 ilə yaxındır ki, əsarət altında olmuş torpaqlarımızı azad etmişik. Bizim başqasının bir qarşı torpağında belə gözümüz yoxdur. İstəsəydik tarixi Azərbaycan torpaqlarını azad edərdik, buna ordumuzun gücü və qüdrəti də çatırdı, ancaq etmədik. Hazırda Ermənistanda bəzi ağıllı düşüncə sahibləri, o cümlədən parlament səviyyəsində təslimçilik qəbul edilib. Onların gələcəyi düşünmək çağırışları ilə çıxış etmələri sağlam təfəkkürün meydana çıxmasından xəbər verir.

**- Sizcə, Ermənistandakı kütləvi aksiyalar nəticə etibarı ilə Paşinyanın hakimiyyətdən devrilməsinə gətirib çıxara bilərmi?**

- İnanmıram ki, Ermənistanda Paşinyana qarşı yönələn aksiyalar, onun hakimiyyətdən getməsi ilə nəticələnsin. Çünki Paşinyanın hakimiyyətdən getməsi baş tutmayan bir sevdadır. Demək olar ki, artıq Paşinyanı Rusiya da qəbul edir. Yəni Paşinyana qarşı hər hansı bir hakimiyyətdən devrilmə, zor tətbiq etmə cəhdi olarsa, Rusiya müdaxilə edəcək və bununla da o hakimiyyətdə qalacaq. Ancaq ölkə daxili vəziyyət ağırlaşmaqda davam edərsə, Ermənistanda vətəndaş müharibəsi qaçılmazdır.

**- Paşinyan hakimiyyətdən uzaqlaşdırılarsa, onun yerinə gələn hər hansı bir Ermənistan rəhbəri Qarabağla bağlı üçtərəfli bəyanatı dəyişməyə cəsarət edə bilərmi?**

- Bu gün Ermənistanda hakimiyyətə iddialı olan insanların demək olar ki, böyük əksəriyyəti həmin üçtərəfli bəyanatı dəyişdirmək istəyənlərdir. Amma bu üçtərəfli bəyanatı dəyişdirib nə edəcəklər ki? Azərbaycan ordusunun zərbələri altında Ermənistan dövlətçiliyinə ciddi zərbələr vurulacaq. Ona görə də, məhz bu səbəbdəndir ki, həmin insanlar hakimiyyətə gəlməyəcəklər.

***Gülyana***

# Anar Xəlilov: "Ermənilər bir daha iki qardaş ölkənin yumruğunun gücünü gördülər"



***"Dekabrın 10-da Vətəb müharibəsində qələbəmiz münasibətilə möhtəşəm Zəfər paradı keçirildi. Zəfər paradında Ali Baş komandan cənab İlham Əliyevlə yanaşı, qardaş Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edirdi". Bunu "Səs" qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.***

Onun sözlərinə görə, Vətən müharibəsində Azərbaycana mənəvi siyasi dəstək olan qardaş Türkiyənin qələbəmizin qazanılmasında müstəsna xidmətləri oldu: "Məhz bu səbəbdən Zəfər paradında iki qardaş ölkənin liderlərinin və hərbçilərinin birgə iştirakı Ümummilli Lider Heydər Əliyevin dediyi kimi "iki dövlət bir millət" sözünün layiqli təsdiqi idi. Qardaş ölkənin liderinin çıxışında da bir daha bütün dünyaya mesaj olaraq bəyan edildi ki, Türkiyə və Azərbaycan bir-birinə dəstəkdir, arxadır, dayaqdır. Bu iki dövlətin maraqları qardaşlıq prinsipinə uyğun olaraq daim üst-üstə düşəcəkdir. Bu sarsılmaz birliyi dünyada heç bir qüvvə poza bilməz. Əksinə dünyada dostlarımız və düşmənlərimiz eyni olacaqdır. Bütün düşmənlərimizə qarşı daim birgə mübarizə aparacaq və maraqlarımızı qoruyacağıq. 44 günlük Vətən müharibəsi Azərbaycan və Türkiyə qardaşlığının möhkəm təməllər üzərində qurulduğunu bir daha əyani sübut etdi".

A.Xəlilov onu da bildirdi ki, Türkiyənin Azərbaycana verdiyi siyasi dəstək cəbhədə Azərbaycan ordusunun şanlı qələbə qazanmasına mənəvi dəstək oldu: "Azərbaycan xalqı tək özünü bütün dünya tərəfindən bütün istiqamətlərdə dəstəklənən Ermənistan qarşısında tək hiss etmədi. Ali Baş Komandanın qətiyyəti, ordumuzun rəşadəti, qardaş Türkiyənin mənəvi dəstəyi bu qələbənin qazanılmasını təmin etdi. Ermənilər rüsvayçı məğlubiyyətə uğradılar. 100 il öncə olduğu kimi ermənilər bir daha iki qardaş ölkənin yumruğunun gücünü başlarında hiss etdilər. Ermənilər bu regionun iki lider dövlətinin gücünü və birliyini bir daha cəzasını almaqla gördü. Ümid edirəm ki, bu tarixi dərsdən ermənilər nəhayət nəticə çıxardaraq böyük güclərin əlində alət olmaqdan özlərini xilas edə biləcəklər. Azərbaycanın tarixi torpaqlarında özlərinə qurduqları saxta dövlətlərinə qane olaraq faşist ideologiyasına xidmət etməyəcək, tarixdə olduğu kimi bizlərin himayəsinə sığınaraq dinc şəraitdə yaşamağı bacaracaqlar. Əks halda ermənilərin növbəti məğlubiyyəti onların bu arealdan birdəfəlik yox olması ilə nəticələnəcək. Havadarları belə onlara kömək edə bilməyəcək. Bunu unutmamalıdırlar".

***G. Agakərimova***

# Ermənistanın qanunsuz silahlanması sülhə təhdiddir

***Bildiyininz kimi, dekabrın 10-da 44 günlük Vətən müharibəsinin yekunu olaraq Azadlıq meydanında təntənəli zəfər paradı keçirildi. Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi Zəfər paradında Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşməndən qənimət kimi götürülən çoxsaylı hərbi texnika nümayış olundu.***



Həmin qənimətlərdən bəziləri "Şilka", "Osa-1T", KUB zenit-raket kompleksləri, piyadaların döyüş maşınları, T-72 tankları və sairdir. Döyüşlər zamanı məhv edilən "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları isə qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir. Burada diqqəti xüsusi cəlb edən məhv edilən və ya qənimət kimi götürülən silahların sırasında satışı qadağan olunan və yaxud da iqtisadi cəhətdən Ermənistanın əldə etməsi mümkün olmayan çoxnövlü silaha arsenalının olmasıdır. Dövlət büdcəsi Azərbaycanın hərbi büdcəsi qədər belə olmayan, iqtisadi imkanları çox az olan işğalçı ölkə bu silahları necə əldə edib?!

Əminliklə demək olar ki, məhv edilən hərbi texnikaların içərisində Ermənistanın iqtisadi gücünün əldə etməyə heç cür imkan vermədiyi, dəyəri yüz milyonlarla dollarla ölçülən S-300 sistemlərindən, satışı qadağan olunan ballistik "Elbrus" raket sistemlərinə qədər çoxnövlü silah arsenalına rast gəlinməsi düşmənin ötən 30 il ərzində qanunsuz silahlandırılmasına bir daha aydınlıq gətirib. Cəmi bir ay ərzində Ermənistana vurulan hərbi ziyan bu ölkənin ümumi hərbi xərclərini 4 dəfəyə yaxın üstələyir. Halbuki 716 milyon ABŞ dolları civarında hərbi büdcəsi olan bir ölkənin milyardlarla dollar silah arsenalına sahib olması iqtisadi qanunauyğunluqlarla heç bir halda izah oluna bilinməz. Cəmi 2,6 milyard ABŞ dolları həcmində rezerv aktivləri olan Ermənistanın iqtisadi gücü bu silahları əldə etmək baxımından xeyli məhduddur. Digər tərəfdən, 44 günlük müharibədə itirdiyi hərbi texnikaların miqdarı Ermənistanın silahlanmanın məhdudlaşdırılmasını nəzərdə tutan "Avropada Adi Silahlı Qüvvələr üzrə Saziş"in şərtlərini də pozduğunu və bu müqavilənin şərtlərinə uyğun olmayan həddə silah və hərbi texnika saxladığını ortaya çıxardı.

Hazırda ən fundamental hərbi xərcləmələr üzrə hesablamalar Ermənistanın bugünkü hərbi büdcəsinin xərc istiqamətləri vasitəsi ilə itirdiyi hərbi texnika və sursatı bərpa etməyə təxminən 25 il vaxt lazım olduğunu göstərir. Məhz buna görədir ki, artıq Ermənistan bu imkanlarının tükəndiyini görür və yenə də heç bir qanuna məhəl qoyulmadan üçüncü ölkələrdən Ermənistana "humanitar yardım" adı altında silahların, maliyyə, ərzaq yardımlarının qanunsuz daşınması həyata keçirilir. Bu vəziyyətin davam etməsi regionda sülhün bərqərar olunmasına hər zaman təhdiddir. Bu səbəbdən də dünya birliyi Ermənistanın qanunsuz silahlanmasına, təcavüzkar siyasətinə və regional sülhə təhdid yaratmasına göz yummamalıdır.

***Taleh Bağırov***

## Nikola qarşı yeni aksiya: Yolu bağladılar



Ermənistan Baş naziri Nikol Paşinyanın istefasını tələb edən etirazçılar Müdafiə Nazirliyinin binasına gedən yolu bağlayıblar. Axar.az xəbər verir ki, etirazçılar "Nikol xaindir" şüarları ilə Moldovakan və Totovents küçələrinin kəsişməsində yolu bağlayaraq hərəkətə mane olublar. Əraziyə polis qüvvələri cəlb edilib, nəqliyyatın hərəkəti dayandırılıb. Daha sonra hüquq-mühafizə orqanlarının əməkdaşları nümayişçiləri oradan uzaqlaşdırıb.

Xatırladaq ki, Ermənistanda müxalif partiyalar Paşinyanın istefasını tələb edən mitinqlər keçirir. Mitinqlərdə Paşinyanın 2018-ci ildə tətbiq etdiyi metoddan - nəqliyyatın hərəkətinin iflic edilməsindən istifadə cəhdləri etirazçıların sayının azlığı səbəbindən nəticə vermir.



# Ermənistan sabitlik yox, partlayış astanasındadır

***Xatırlayırıqsa, iqtisadi baxımdan 2020-ci ilə guya ki, Ermənistanın daha nikbin başladığını bu ölkə hakimiyyəti bəyan edirdi və daxili auditoriyanı aldatmağa çalışırdı. Bəlkə də hardasa, buna nail ola bilirdi də. Ən azından bu gün bu işğalçı ölkədəki kimi hakimiyyətə ultimatumlar səsləndirilmirdə. İndi isə vəziyyətin tamamilə dəyişdiyini görməmək mümkün deyil və bu il Ermənistan həm nəzarəti itirdiyi koronavirus infeksiyasından, sonra da müharibə zamanı rüsvayçı məğlubiyyətlərlə qarşılaşmalı, itgilər verməli oldu ki, bununla heç bir nikbinliyə zərrə qədər əsas qalmadı. Bu biçarə ölkədə 2020-ci il heç zaman olmayan mənfi iz buraxdı, həm builki büdcənin icrasını, həm də gələn ilin imkanlarını şübhə altına aldı.***

Bu il işğalçı ölkənin geriləməsinin nə qədər olacağını söyləmək belə çətindir. Milli Məclisdə işğalçı ölkənin maliyyə naziri Atom Cancuqazyan qeyd edib ki, koronavirusun Ermənistan iqtisadiyyatına mənfi təsiri hələ bitmək bilmir, nəinki, müharibənin məğlubiyyət və itgiləri. Müharibənin mənfi təsirləri barədə isə nazir susur. Əslində, sussa da məğlubiyyətləri və bu məğlubiyyətdən doğan itgiləri, dövlət büdcəsinin yox dərəcəsinə enməsi, üstəlik dövlət borcları göz qabağındadır və bunu deməsə belə hər kəsə bəllidir. Belə olan halda bu ölkənin maliyyə naziri hansısa bir irəliləyiş olacağı barədə hansı üzlə danışa bilər?

Nazir, koronavirusun bütün dünyanı sarsıtdığını bəhanə olaraq diqqətə çatdırır və bir növ bunun təkcə Ermənistana yox, hamıya mənfi təsir göstərməsi ilə ölkəsini sığortalamağa çalışır. Onun sözlərinə görə, əvvəllər iqtisadi artım dünyanın demək olar ki, bütün ölkələrində proqnozlaşdırılırdısa, indi yenidən işlənmiş proqnozlar tamamilə əks təsəvvür formalaşdırır. Amma, erməni maliyyə nazirinin timsalında erməni səlahiyyətlilərə xatırladırıq ki, hamıdan fərqli olaraq, Azərbaycanın erməni terrorçuları, separatçıları tərəfindən işğaldan saxlanılan torpaqlarının azad edilməsi istiqamətində hərbi əməliyyatlara başlaması və öz düçmənini vurduğu zərər Ermənistan iqtisadiyyatına və bütövlükdə işğalçı ölkə büdcəsini tamamilə sarsıdıb. "Bu cür şərtlərdə 2021-ci il dövlət büdcəsi layihəsini iki dəfə yenidən nəzərdən keçirdik, lakin xərclərin azaldılması təkliflərini heç vaxt müzakirə edə bilmədik və bu mümkünsüzdür", deyə erməni maliyyə naziri bəyan edib.

Artıq Ermənistanda 2020-ci il büdcəsinin az icra olunduğu göz qabağındadır. Müxtəlif hesablamalara görə, bu işğalçı ölkədə aşağı performans təxminən 17% təşkil edəcək. Milli Statistika Komitəsinin məlumatına görə, 2020-ci ilin üçüncü rübündə ölkənin Ümumi Daxili Məhsulu, ilkin məlumatlara görə, 2019-cu ilin eyni dövrü ilə müqayisədə 9,1% azalmışdı. Nəzərə alaq ki, məğlubiyyəti və itgiləri ilə nəticələnən müharibənin fonunda azalmanın səviyyəsi qeyd olunandan dəfələrlə yüksək olmalıdır. Daha aydın şəkildə desək, işğalçı ölkənin dövlət büdcəsinin üçüncü rübün nəticələrindən dəfələrlə az olacağı zərrə qədər şübhə doğura bilməz.

Hətta, əgər varsa belə, çox optimist, doğru-dürüst bir ssenari altında Ermənistan hələ qarşıdan gələn ilin, 2021-ci ilin sonuna belə ötən illərlə müqaisədə geriləməni sıfıra yaxınlaşdıra bilməyəcək. Nikol Paşinyan hökumətinin proqnozu gerçəkləşərsə belə, planlaşdırılan böyüməni təmin edə bilərsə belə, 2021-ci ilin sonuna 2019-cu illə müqayisədə 3,5% azalma indidən etiraf edilir.

Məsələ burasındadır ki, Ermənistanda hal-hazırda hansısa bir layihədən, ssenaridən nə danışan var, nə də danışan olsa belə buna məhəl qoyan yoxdur. Şünki, hakimiyyət və müxalifət nümayəndəsi olmasından asılı olmayaraq hər kəsin başı siyasi proseslərə, meydanlarda etirazlara qarışıb. İndi iqtisadiyyat, inkişaf, dinamika və bu kimi məsələlər kiminsə ağlına belə gəlmir. Hamıının diqqəti meydanlara fokuslanıb və bir növ vətəndaş müharibəsi astanasında olan ölkə üçün bu başadüşüləndir. Yəni, qısa olaraq desək, hansısa irəliləyişdən söhbət belə gedə bilməz, çünki, buna fikir verən belə yoxdur.

Digər tərəfdən, göz qabağındadır ki, Ermənistan cəmiyyətində yalnız nifrət hökm sürür. Ağlara və qaralara bölünən bu cəmiyyət hərhansı müstəvidə iki cəbhəyə bölünüb və biri gigərinə düşmən kəsilib. Bu işğalçı ölkədə hakimiyyət daxilində belə müxtəlif parçalanmalar hökm sürürsə, qruplaşmalar varsa, bir qrup digərinə nifrət aşılayırsa, belə olan halda hansısa gələcək çox qaranlıq görünür. Üstəlik, bu ölkədə müxalifət hakimiyyətlə mübarizə aparmaqdan əlavə ona nifrətlə yanaşır, hakimiyyəti xəyanətdə, xəyanətkarlıqda, ölkəsini, vətəndaşlarını satmaqda ittiham edir.

Heç şübhəsiz ki, nifrət toxumlarının bundan sonra azalacağı da inandırıcı deyil. Əksinə, günü-gündən etiraz aksiyaları qızışan İrəvanda müxalifətin aqressiv hərəkətləri diqqəti cəlb edir və bu da təsdiq edir ki, müsbət istiqamətlərdə gözləntilərə dəyməz. Nifrətin bu şəkildə artması fonunda, bir ölkənin, özü də işğalçılıq siyasəti yürüdən bir ölkənin xarici borcunun azalacağı barədə Nikol Paşinyanın, yaxud, onun yerində kim olur-olsun uydurmalarına inanan olarmı? Bu fikirlərə həmin o populist çıxışlara inanmaq marağında olan ermənilər özləri də artıq inanası deyil.

Müharibədən sonra, daha dəqiq desək, məğlubiyyətlə qarşılaşdıqdan sonra hansı investisiyadan söhbət gedə bilər? Qalib ölkələr, ələlxüsus Azərbaycan kimi sərvətlərə, ehtiyatlara və ilk növbədə qlobal iqtisadi layihələrə sahib qalib, məğrur ölkə dura-dura, kimlər Ermənistana vəsait yatırımına maraq göstərər? Üstəlik, hələ də daxili çəkişmələr, müharibə əhval-ruhiyyəsi hökm sürən ölkə hansısa sərmayəçinin maraqlarına cavab verə bilməz axı. İndi müharibədən sonrakı bu vəziyyətdə, yeni bir müharibə, vətəndaş müharibəsi riski və daxili siyasi qarışıqlıq səbəbi ilə ermənilərin investisiya gözləməsi real deyil. Nikol Paşinyanın guya ki, qətiyyətli antikorrupsiya mübarizəsi belə investisiya gətirmədi bu işğalçı ölkəyə. İndi vəziyyət yumşaq desək daha əlverişsizdir. Daha dəqiq desək çox acınacaqlıdır və ən uğursuz bir sərmayədar belə kataklizmlər burulğanında fırlanan Ermənistana investisiya qoymaq barədə düşünməz belə. Vəsaitləri olanlar, investisiya qoymaq marağında olanlar bir qayda olaraq, macəralara deyil, iqtisadi layihələrə sərfiyyata üstünlük verirlər.

Ermənistanın hazırki mənzərəsi heç də hansısa normal biznes mühiti üçün əlverişli görünmür. Əksinə, bunun əksi müşahidə olunur. Bir az daha dəqiq desək, Milli Məclisindəki dava-dalaş, küçələrində istefa çağırışları, baş nazirin maşın kortecinə, sonra da onun üstünə yumurta atılması təsdiq edir ki, müharibə Azərbaycanın qələbəsi ilə qurtardığı halda, bu ölkədə hələ də müharibə davam edir və bu müharibəni erməni vətəndaşları özləri-özlərinə qarşı elan ediblər. Ermənistanda gedən proseslər hələ böyük partlayışlar da vəd edir. Çox güman ki, bu ölkədə ən yaxın zamanda vətəndaşlar arasında daxili çəkişmələr ən yüksək həddə, qırğınlara gətirib çıxaracaq. Bir sözlə, Ermənistan inkişaf yox, partlayış astanasındadır.

***İnam Hacıyev***

# Qaqik Sarukyan: "Dağlıq Qarabağın taleyi Ermənistanın da başına gələ bilər"



"Çiçəklənən Ermənistan" müxalifət partiyasının lideri Qaqik Sarukyan hesab edir ki, Nikol Paşinyanın rəhbərlik etdiyi hazırkı hökumət getməlidir, əks təqdirdə, bütövlükdə ölkə, yeni Ermənistan Dağlıq Qarabağın taleyini yaşayacaq. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu müxalifət partiyasının lideri Ermənistan telekanallarına verdiyi müsahibəsində söyləyib.

"Bu günlərdə vəziyyət çətin, təhlükəlidir və biz uçurumdayıq. Beş-altı ay bundan əvvəl mən Dağlıq Qarabağın uçurumun kənarında olduğunu söylədim və Ermənistan haqqında da eyni şeyi söyləyirəm. Vəziyyəti dəyişdirmək üçün addımlar atılmalıdır, hökumət mütləq getməlidir", deyə Sarukyan bəyan edib.

Onun sözlərinə görə, ölkəni bu çətin iqtisadi və siyasi böhrandan tam şəkildə çıxara biləcək və eyni zamanda danışıqlar apara biləcək birinə ehtiyac var. Əks təqdirdə, Ermənistan Qarabağın taleyi ilə qarşılaşacaq. Sarukyan əmindir ki, müharibədə ölənlərə görə matəm əhval-ruhiyyəsi olmasaydı, müxalifətin mitinqinə 15 min deyil, 150 min adam qatılacaqdı. O, əlavə edib ki, insanlar yas içindədirlər və onlar yalnız oğullarına, ərlərinə, qardaşlarına deyil, həm də itirilmiş torpaqlara görə də yas tuturlar və ən yaxın zamanda, onlar da mitinqlərə qatılacaqlar.

Sarukyan bu vəziyyətin əsas səbəbinin səriştəli kadr çatışmazlığı olduğu qənaətindədir. Gənc və təcrübəsiz insanlardan ibarət bütün hökumətin bir neçə ay əvvəl belə dəyişdirilməli olduğuna əminliyini ifadə edir. O, düşünür ki, belə olsaydı ümumiyyətlə müharibə olmazdı. Sarukyan onu da əlavə edib ki, mövcud hakimiyyət orqanları həm Rusiya ilə, həm də ATƏT-in Minsk qrupunun digər həmsədrləri ilə səlahiyyətli, normal, düşünülmüş danışıqlar apara bilsəydi, Qarabağ münaqişəsində fərqli bir nəticə əldə etmiş olardı.

Xatırladaq ki, bir qədər əvvəl Nazirlər Kabineti rəhbərinin istefasını tələb edən 16 müxalifət qüvvəsi keçid hökuməti qurmaq niyyətində olduqlarını elan edib və müstəqil Ermənistanın ilk baş naziri, İctimai Şuranın keçmiş rəhbəri Vazgen Manukyanı vahid namizəd olaraq irəli sürüb. Qeyd edək ki, 10 noyabrdan bəri İrəvanda Ermənistan baş naziri Nikol Paşinyanın istefası tələbi ilə mitinqlər və yürüşlər keçirilir. Aksiyaların əsas təşkilatçıları müxalifət partiyaları "Daşnaksütyun", "Vətən" və "Çiçəklənən Ermənistan" partiyalarıdır. Zaman zaman aktivistlər ayrı-ayrı küçələri bağlayırlar.

***İnam***

# Ayk Xalatyan: "Yeni ilədək Paşinyan gedəcək, Köçəryan əsas personaj olacaq"



Nikol Paşinyan bu gün Robert Köçəryanın erməni siyasətində bir amil olması üçün hər şeyi etdi və indi Ermənistanın ikinci prezidenti çoxları üçün alternativ olacaq. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, siyasi müşahidəçi Ayk Xalatyan bunu "FactInfo" studiyasındakı "Mövqe" proqramına müsahibəsində söyləyib.

"Robert Köçəryanın yenidən hakimiyyətə qayıtmaq istəyib-istəmədiyini bilmirik. Bir şey aydındır ki, növbəti seçkilərdə Köçəryan siyasətdə indikindən daha böyük rol oynayacaq", deyə Xalatyan bildirib. Ayk Xalatyana görə, Ermənistanda hakimiyyət dəyişikliyi yeni ildən əvvəl baş verəcək.

# Eduard Vartanyan: "Döyüş meydanından qaçırdılar"



"Erməni hərbçiləri ikinci Qarabağ müharibəsində döyüş meydanından qaçırdılar". SİA xəbər verir ki, bu barədə "Vestnik Kavkaza" saytı qarışıq döyüş növləri üzrə peşəkar erməni idmançısı Eduard Vartanyanın sözlərini yazıb.

"Bu yaxınlarda Eduard Vartanyan videomüraciət yayaraq, orada əsgərlərin, zabitlərin və generalların Cəbrayıl istiqamətindəki döyüş meydanından necə qaçmaları barədə danışıb", yazan sayt qeyd edir ki, humanitar məqsədi ilə cəbhəyə yollanan Vartanyan Qarabağdakı əhaliyə göndərilən yardımların yalnız 20 faizi ehtiyacı olanlara çatdırılırdı, yerdə qalanları isə oğurlanırdı. Onun sözlərinə görə, Nikol Paşinyan hər şey haqda məlumatlı idi. "Şuşada yalnız könüllülər döyüşürdü, erməni ordusunu orada görmədim. Müdafiə təşkil olunmamışdı", deyən erməni idmançısı hesab edir ki, döyüşdən qaçanlar, cinayətkar məsuliyyətsizliyə yol verənlər cəzalandırılmalıdırlar.

***Rövşən***

***Ermənilərin özlərini dünyanın ən qədim xalqı hesab etməsi, Qafqazda, o cümlədən Qarabağda qədimlərdən aborigen xalq olmaları və burada qədim mədəniyyət haqda cəfəngiyyatları tarix elmində heç bir fakta, sənədə, dəlilə söykənməyən uydurmalardır. Bu uydurmalara dünyada özlərindən başqa heç kim inanmır, lakin bu onlara bu cür utopik saxta tarixi xəritələr və mədəni abidələr düzəltməyə mane olmur. Lakin elm nağıllara yox, tarixi faktlara, sənədlərə əsaslanır. Bu yazıda Qarabağın tarixi haqda bəzi məlumatları oxucularımızla bölüşəcəyik.***

# Qarabağın erməniləşdirilməsi tarixi -FAKTLAR

*Ərəb xilafəti dağılarkən onun ərazisində dirçələn yerli dövlətlər içərisində heç bir erməni dövlətinin olmaması Cənubi Qafqazda ermənilərin ümumiyyətlə dövlətçilik tarixinə malik olmadıqlarını sübut edir*

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin süqutundan sonar baş verib. Ərəb işğallarınadək Qarabağın tarixi əhalisi etnik baxımdan eyni kökdən, yəni Azərbaycan-Albaniya kökündən olduğu halda, bu dövrdə Ərəb xilafətinin Azərbaycanla bağlı yeritdiyi faciəli siyasət nəticəsində vilayətin dağlıq hissəsində ermənilərin dini üstünlüyünün təmin edilməsi, zaman keçdikcə etnik sahədə də özünü göstərdi: Albaniyanın tarixi Arsak bölgəsi əhalisinin əvvəlcə qriqorianlaşdırılmasına, bunun ardınca da erməniləşdirilməsinə başlandı.

Azərbaycanın bu bölgəsində qriqoriyanlaşdırma və erməniləşdirmə proseslərinin səbəbləri, gedişi və erməni-xilafət əməkdaşlığının mahiyyəti və b. problemlər, onun tarixi ədəbiyyatda necə əks olunması məsələləri akad. Z.Bünyadov tərəfindən xüsusi olaraq tədqiq edilmişdir.

Təbiidir ki, qriqorianlaşdırmaya nisbətən erməniləşdirmə uzun proses olmalı idi və həqiqətən də bu belə oldu. Ona görə də Z.Bünyadov akad. S.T.Yeremyanın “VII əsrdən (qəti olaraq VIII əsrin əvvəllərindən) Alban kilsəsinə erməni kilsəsinin bir hissəsi kimi baxılırdı” və bu zaman Arran vilayətindən Sünik, Arsax, Uti və başqalarının erməniləşdirilməsini iddia edən fikrinə etiraz edərək yazır: “İki müxtəlif anlayış olan erməniləşdirmə və qriqorianlaşdırma anlayışlarının qarışdırılması diqqəti cəlb edir. Bu yerdə erməni kilsəsinin köməyi ilə Arran əhalisinin yalnız qriqorianlaşdırılmasından danışıla bilər. S.T.Yeremyanın bu barədəki nöqteyi-nəzəri o qədər də doğru deyildir, çünki Arran vilayətində Sünik vilayəti və Arsaxın xeyli hissəsi XII əsrin əvvəllərinə yaxın erməniləşdirilmişdir”.

Bu fikir (həm də akad. S.T.Yeremyanın gəldiyi nəticə!) bir daha təsdiq edir ki, Qarabağın bu hissəsində yaşayan əhali əvvəldən erməni olmamış, əksinə yerli Azərbaycan-alban tayfaları olmuşlar və sonradan erməniləşdirilmişlər, daha doğrusu əvvəlcə qriqorianlaşdırılmış, sonra isə erməniləşdirilmişlər.

Populyasiyanın etnogenezi və onun qarşılıqlı əlaqəsi haqqında informasiya verən və müasir elmi nailiyyətlərə əsaslanan odontoloji tədqiqatlar da bunu sübut edir.

Heç də təsadüfi deyil ki, Ərəb xilafəti parçalandıqdan sonra Albaniyanın həmin ərazisində Sünik və Arsax-Xaçın knyazlıqları yarandı. “XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağıldı, buradakı hakim sülalə 1166-cı ildən knyaz Qriqorun və Smbatın ölümü ilə kəsilmiş oldu. XII əsrin sonu-XIII əsrin əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığı İ.A.Orbelinin sözləri ilə desək “qədim Albaniyanın bir hissəsi” idi”.

Beləliklə, tamamilə təbiidir ki, Ərəb xilafəti dağılarkən onun ərazisində dirçələn yerli dövlətlər içərisində heç bir erməni dövləti olmamışdır. Bu da, Azərbaycandan və Gürcüstandan fərqli olaraq, Cənubi Qafqazda ermənilərin ümumiyyətlə dövlətçilik tarixinə malik olmadıqlarını sübut edir.

Bu proseslərin baş verdiyi IX-XIII əsrin əvvəlləri, xüsusilə Sacilər-Atabəylər-Şirvanşahlar dövrü bütün Cənubi Qafqazda Azərbaycanın qüdrətinin daha da artdığı bir dövr idi. Sacilər və Atabəylər faktik olaraq Azərbaycanın tarixi torpaqlarını siyasi cəhətdən birləşdirmişdilər.

Keçmiş Albaniya ərazisində yaranmış Xaçın knyazlığı Mehranilər nəslinə mənsub olan Həsən Cəlalın dövründə (1215-1261) yüksək inkişaf mərhələsinə çatmışdı.

Təsadüfi deyil ki, dövrün narrativ və epiqrafik abidələrində o, “Xaçın ölkələri knyazı”, “Xaçın və Arsax ölkələrinin əzəmətli knyazı” titulları ilə yanaşı, “Albaniya hökmdarı” titulu ilə də anılır. Başqa sözlə, Həsən Cəlalın bütün titulları Azərbaycan - Albaniya tarixinə məxsusdur. Onun zamanında Alban memarlığının ən mühüm incilərindən biri olan Gəncəsar monastrı tikildi.

Monqolların birinci yürüşü zamanı (1220-1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı (1225-1231) Qarabağ da onun hakimiyyəti altında idi.

Monqolların 2-ci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231-1239) Qarabağ digər Azərbaycan torpaqları kimi Ali monqol xaqanlığının (1239-1256), sonra isə Hülakülər (Elxanilər) dövlətinin (1256-1357) tərkibində idi.

Həmin dövrdə “Qara” və “bağ” söz birləşməsi - “Qarabağ”, artıq, konkret coğrafi əraziyə şamil edilir. V.Piriyev yazır: “Arran Qarabağı” adı ilk dəfə Rəşid əd-Dinin “Came ət-təvarix” əsərində 1284-cü il hadisələrinin şərhi ilə əlaqədar xatırlanır”. Bu dövrdə Qarabağ Arranın daxilində dağlıq və dağətəyi torpaqları birləşdirən vahid ərazidən ibarət idi.

XIII-XIV əsrlərdə Qarabağ Hülakular dövlətinin siyasi tarixində mühüm rol oynayır. V.Piriyev qeyd edir ki, “Monqol hökmdarlarının daima Qarabağda qışlamaları bir sıra dövlət səviyyəli hadisələrin burada baş verməsinə səbəb olmuşdur. Təkcə onu göstərmək kifayətdir ki, monqol hökmdarlarından ikisi (Qazan xan və Arpa xan) səltənət taxtına Qarabağda çıxmış, ikisi isə (Arqun xan və Əbu Səid) Qarabağda vəfat etmişdir”.

XIII-XIV əsrlərdə də Qarabağ Azərbaycan torpağı idi və onun əhalisi də, əsasən, Azərbaycan türklərindən ibarət idi. XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin tərkibində idi. Lakin Qaraqoyunlular dövründə Qarabağın sonrakı tarixində özünü göstərəcək bir hadisə baş verdi. XV əsrdə keçmiş alban hakimi Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahan şahdan “məlik” titulu aldı. Sonralar Cəlalilər nəslinin mülkü 5 alban feodal knyazlıqları- məlikliklərinə (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq) parçalandı.

Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı.

Bununla Azərbaycan Səfəvi dövləti regionun 2 ən qüdrətli dövlətindən birinə çevrildi. Belə olduğu halda o dövrdə ermənilərin hər hansı etnik-siyasi üstünlüyü mümkün olan məsələ deyildi. Əksinə, həmin dövrdə Azərbaycanın etnik və siyasi sərhədləri daha aydın şəkil alır.

Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi idi. Osmanlıların bu torpaqlarda tərtib etdikləri icmal və müfəssəl dəftərlər həmin bəylərbəyliyin inzibati-ərazi bölgüsü haqqında aydın təsəvvür yaradır. 1593-cü il məlumatına görə Gəncə-Qarabağ əyaləti 7 sancaq, 36 nahiyəyə bölünürdü.

Burada qeydə alınan 1,3 mindən çox toponimik vahidlərin hamısı, demək olar ki, azərbaycanlılara məxsus idi. Bunlardan heç biri ermənilərə məxsus olmamışdır.

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi. Bu dövrdə Gəncə-Qarabağ torpaqları əvvəlcə Osmanlı imperiyası tərkibində olmuşdur. Həmin dövrdə tərtib olunan Osmanlı dəftərləri də azərbaycanlıların bölgənin əsas əhalisi olduğunu sübut edir.

Hesablamalara görə 1727-ci ildə Gəncə-Qarabağ əyalətinin əhalisi 122 min nəfər idi. Onun 80,3 min nəfərini (66%) azərbaycanlılar, 37,8 min nəfərini (31%) ermənilər (daha doğrusu qriqorianlaşmış və erməniləşmiş albanlar), 3,7 min nəfərini (3,1%) kürdlər təşkil etmişdir.

Bəhs olunan dövrdə Rusiyanın fəal köməklik göstərdiyi qriqorianlaşmış albanlar siyasi cəhətdən fəallaşır. Digər tərəfdən, sonuncu Səfəvi hökmdarı III Abbası yıxaraq hakimiyyətə gələn Nadir şah Əfşar (1736-1747) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyliyinin türkmüsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi ki, bu amil də Qarabağın qriqorianlaşmış alban məliklərinin mövqeyini gücləndirdi və onların separatizminə təkan verdi. Nadirin ölümü ilə onun dövləti parçalandı, Azərbaycanda yerli dövlətlər- xanlıqlar yarandı.

Azərbaycan, xanlıqların timsalında özünün dövlət müstəqilliyini növbəti dəfə bərpa etdi. Keçmiş Gəncə-Qarabağ əyalətinin ərazisində 2 Azərbaycan xanlığı- Gəncə və Qarabağ xanlıqları yarandı. Onların da əhalisinin böyük əksəriyyəti müsəlman azərbaycanlılardan ibarət idi. Bu nisbət sonrakı dövrlərdə İran və Osmanlıdan köçürülən ermənilərin xeyrinə dəyişməyə başladı. Bu haqda əvvəlki yazılarımıza geniş bəhs etmişik.

**Altay**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

***Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

12 dekabr

# Hansı komandalar Avropa Liqasında 1/16 finala yüksəldi?




***Futbol üzrə UEFA UEFA Avropa Liqasında qrup mərhələsinə yekun vurulub. Qol.az xəbər verir ki, sonuncu - 6-cı turda 12 qrupda 23 oyun keçirilib.***

Yalnız Azərbaycan çempionu "Qarabağ"ın koronavirusa yoluxan futbolçularının çox olması üzündən İspaniyada keçirilməsi planlaşdırılan "Vilyarreal"la matçı ləğv olunub. Bu görüşlə UEFA yaxın günlərdə yekun qərarını açıqlayacaq.

Son oyun günündə 1/16 finala daha 6 vəsiqənin sahibi bəlli olub. Baş tutan qarşılaşmaların ardından "Yanq Boyz", "Molde", "Napoli", "Real Sosyedad", Təl-Əviv "Makkabi"si və "Volfsberger" yoluna davam edən komandalara qoşulublar.

Qeyd edək ki, bu turadək "Roma", "Arsenal", "Slaviya", "Bayer", "Benfika", "Reyncers", "Qranada", PSV, "Lester", "Braqa", "Lill", "Milan", "Vilyarreal", "Antverpen", "Tottenhem", Zaqreb "Dinamo"su, "Hoffenhaym" və "Srvena Zvezda" 1/16 finala vəsiqə qazanıb. Bu klublara Çempionlar Liqasında öz qruplarında 3-cü pilləni tutmuş 8 komanda - "Şaxtyor" Donetsk və "Dinamo" Kiyev (hər ikisi Ukrayna), "Mançester Yunayted" (İngiltərə), "Zalsburq" (Avstriya), "Olimpiakos" (Yunanıstan), "Ayaks" (Niderland), "Krasnodar" (Rusiya), "Brügge" (Belçika) qoşulacaq.

# Neymar PSJ-ni hədələdi: müqavilə imzalamayacam



**Fransanın PSJ futbol klubu, braziliyalı futbolçusu Neymarla yeni müqavilə bağlamaq üçün razılığa gələ bilmir. Bu haqda "La Parisien" nəşri məlumat yayıb. Klubun 28 yaşlı hücumçu ilə danışıqlarda irəliləyiş əldə etmədiyi bildirilib.**

Braziliyalı oyunçu Paris klubunda xoşbəxtdir. Lakin, o, paytaxt təmsilçisinin bir neçə il rəqabət aparacaq bir klub olacağına dair təminat almasa, müqavilə imzalamayacaq. Qeyd edək ki, Neymarın PSJ ilə hazırkı sözləşməsinin müddəti 2022-ci ilin yayına qədərdir.

# Quru meyvələrin faydası



Amerika alimləri sübut ediblər ki, qurudulmuş meyvələr təzə məhsullardan daha çox faydalıdır. PİA.az xəbər verir ki, bununla bağlı məqalə "Journal of the Academy of Nutrition and Dietetics" nəşrində dərc edilib. Alimlərin qənaətincə, quru meyvələr təzələri qış mövsümündə müvəffəqiyyətlə əvəz edə bilərlər.

Bununla bağlı keçirilən tədqiqatın nəticələri göstərib ki, quru meyvələri sevən insanlar daha möhkəm sağlamlığa malikdirlər və daha az xəstələnirlər. Alimlər demək olar, 26 min insanın qida rasionunu analiz ediblər və onların tibbi kartını təhlil edbilər.

Mütəxəssislərin sözlərinə görə, quru meyvələr karbohidratlarla, kaliumla, doymamış yağlarla zəngindir. Çünki bütün meyvələr qışa qədər qalmadığından və qiymətləri nəzərəçarpacaq dərəcədə artdığından, qurudulmuş meyvələr onları əvəz edə bilər. Onlar yaxşı qəlyanaltı ola bilər, amma unutmayın ki, quru meyvələrdə adi meyvələrdə olduğu qədər çox kalori var. Dondurulmuş və konservləşdirilmiş meyvələr bahalı qış meyvələrinin əvəzediciləri ola bilər. Onlar bütün il boyu mövcuddur, vitamin və mineralları qoruyur və əksəriyyəti təzə meyvələrdən daha ucuzdur. (Report)

# Oğurlanmış heykəl 50 ildən sonra ölkəyə Türkiyəyə qaytarılır



Bolluğun və bərəkəti simvolizə edən ana tanrı Kybelenin heykəli 50 illik mübarizədən sonra, nəhayət, 12 dekabrda Türkiyəyə gətiriləcək. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi açıqlama verib. Məlumata görə, Türkiyədən qaçaqmalçılıq yolu ilə İsrailə aparılan və orada satılan, mütəxəssislərin fikrincə 3-cü yüzilliyə aid olan Kybele ABŞ-dan Türkiyəyə gələcək.

Bildirək ki, proses 12 dekabrda Türk Hava Yolları tərəfindən həyata keçiriləcək. Nazir Nuri Ərsoy heykəlin 13 dekabrda İstanbul Arxeologiya Muzeyində nümayiş etdiriləcəyini açıqlayıb.(yenisabah)

## Saxada 52 dərəcə şaxta olub...



Dekabrın 11-də Rusiyanın Saxa Respublikasının (Yakutiya) Verxoyan və Oymyakon rayonlarında 52 və 51 dərəcə şaxta qeydə alınıb. "Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə respublikanın Hirdometeoroloji və ətraf mühitin monitorinqi idarəsi məlumat yayıb.

Bildirilib ki, dekabrın 11-də Yakutiyanın 20 məntəqəsində 45 dərəcə şaxta olub. Respublikanın bir çox rayon və şəhərlərində 1-5-ci siniflərin şagirdlərinə tətil verilib. Verxoyan və Oymyakon Yerin şimal yarım kürəsinin ən soyuq məntəqəsi sayılır. Bir müddət əvvəl orada 67 dərəcə şaxta qeydə alınıb.

Qeyd edək ki, Saxa Respublikası ərazisinə görə Rusiyanın ən böyük subyektidir. Onun ərazisi 3 083 523 kv.km, əhalisi isə 971 996 nəfərdir.

## Benzema Karlosun rekordunu təkrarladı



"Real"ın futbolçusu Kərim Benzema Madrid klbunda ən çox oyun keçirən iki legionerdən biridir. Belə ki, fransalı hücumçu ötən gün Çempionlar Liqasının qrup mərhələsinin 6-cı turunda Münhenqladbax "Borussiya"sı ilə oyuna (2:0) çıxmaqla komandanın sabiq futbolçusu Roberto Karlosun rekordunu təkrarlayıb.

Dubl etdiyi görüş Benzemanın Madrid klbundakı 527-ci oyunu olub. Roberto Karlos da "kral klubu"nda eyni sayda oyun keçirib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**